

*Gün gələcək Azərbaycan dünyaya günəş kimi doğacaq.*

AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

19 APREL 2024-cü il CÜMƏ № 78 (7836) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLIKA-NEWS.AZ


# Güclü iqtisadiyyat, dövlət

## Bu, Azərbaycanın yeni inkişaf hədəflərinin əsasını təşkil edir



***Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan ardıcıl və məqsədyönlü siyasət ölkəmizin beynəlxalq birliyə sıx inteqrasiyasını təmin edir. Nüfuzlu maliyyə qurumları tərəfindən iqtisadi durumu yüksək qiymətləndirilən Azərbaycan müstəqil siyasətini zamanın dəyişən tələblərinə və yeni çağırışlara uyğun qurur. Dövlət başçısı bu barədə deyib: "İqtisadiyyatın şaxələndirilməsi bizim əsas məqsədimizdir. Düşünürəm ki, biz bu istiqamətdə yaxşı uğurlar əldə etmişik".***

Dövlət başçısı qeyd edib ki, Azərbaycan bir sabitlik adasıdır. Ölkəmizdə istər sosial, istər iqtisadi, istərsə də ictimai sabitliyin qorunmasında müsbət irəliləyişlər davam edir. İqtisadiyyat öz yüksəliş dövrünü yaşayır və onun şaxələndirilməsi iqtisadi inkişaf siyasətinin əsas xüsusiyyətlərindən biridir. Regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramlarında qeyri-neft sektorunun inkişaf etdirilməsi əsas prioritetdir. Uğurla həyata keçirilən sosial-iqtisadi islahatlar milli iqtisadiyyatın davamlı inkişafını, onun maliyyə dayanıqlılığının güclənməsini müasir sosial-iqtisadi infrastruktur quruculuğunun sürətlənməsini, habelə bir çox sosial problemlərin ardıcıl şəkildə həllini, xalqın maddi rifahının yüksəlməsini, innovasiyaların sürətlə mənimsənilməsini və insan kapitalının davamlı inkişafını təmin edir. Azərbaycan dünya miqyasında sabit və dayanıqlı iqtisadiyyatı, eləcə də böyük maliyyə resursları olan, mühüm geosiyasi və geoiqtisadi mövqe tutan, qlobal enerji təhlükəsizliyinin təminatında strateji rol oynayan dövlətə çevrilmişdir.

"Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də də qeyd edildiyi kimi, iqtisadi artım qabaqcıl və effektiv təşəbbüslərə söykənməli, dövlət və özəl qurumlar arasında əməkdaşlıq gücləndirilməli, yenilikçilik ruhuna malik özəl sektorda aktivlik daha da canlandırılmalı, qeyri-neft sektorunun maliyyələşməsində özəl sahənin payı artırılmalıdır. Dövlət başçısı şaxələndirilmənin milli iqtisadiyyat qarşısında əsas çağırış olaraq qoymuş və bu istiqamətdə görülən işlər nəticəsində ötən 20 il müddətində qeyri-neft sektoru üzrə ÜDM 3,4, dövlət büdcəsinin xərcləri 30 dəfə artmışdır. 2003-cü ildə adambaşına düşən büdcə xərcləri 150 manatdan az idisə, hazırda bu rəqəm 3500 manatdan çoxdur. Xarici ticarət dövriyyəsi 10,8, o cümlədən ixrac 16,1 dəfə artıb. Aparılan çoxşaxəli iqtisadi siyasət nəticəsində davamlı iqtisadi inkişaf təmin olunmuşdur. Azərbaycanın xarici valyuta ehtiyatları son 20 ildə 47 dəfədən çox artaraq 66 milyard ABŞ dollarını keçmişdir. Bu dövr ərzində sərmayələrin ümumi həcmi 300 milyard ABŞ dollarından çox olmuşdur.

Ötən dövrdə qeyri-neft sektorunun davamlı inkişafını təmin etmək, innovativ və yüksək texnologiyalara əsaslanan sənaye müəssisələrini təşkil etmək, bu sahədə sahibkarlığı dəstəkləmək və istehsal sahəsində məşğulluğu artırmaq məqsədilə ölkədə yüzlərlə istehsal və emal müəssisələri, iri sənaye mərkəzləri, sənaye parkları və məhəllələri yaradılmışdır. Milli sosial rifah səviyyəsinin davamlı artırılması məqsədilə yüksək, dayanıqlı, inklüziv və başlıca olaraq özəl təşəbbüslərə arxalanan iqtisadi artımın sürətlənməsi, azad edilmiş ərazilərə əhalinin qayıdışının təmin olunması ölkəmizin inkişafının ideoloji özəyini təşkil edir. 44 günlük Vətən müharibəsində Azərbaycanın şanlı qələbəsini şərtləndirən amillər sırasında ölkəmizin güclü iqtisadi potensialı xüsusi yer tutur. Respublikamız məhz getdikcə artan iqtisadi-maliyyə imkanlarından bəhrələnməklə güclü ordu yaratmağa, Silahlı Qüvvələrimizi müasir döyüş texnikası ilə təchiz etməyə nail oldu. Güclü Ordumuz isə Prezident, Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə bütün döyüş tapşırıqlarını uğurla yerinə yetirərək düşməni kapitulyasiyaya uğratdı və ərazi bütövlüyümüzü tam təmin etdi. Qələbə nəticəsində işğaldan azad edilmiş ərazilərin ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyası, yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin imkanlarından faydalanmaq Azərbaycanın inkişafına böyük təkan verəcəkdir. Bu həm də regionda təhlükəsizliyin, sabitliyin, rifahın və qarşılıqlı faydalı əməkdaşlığın formalaşmasında, eləcə də iqtisadi və ticarət əlaqələrinin inkişaf etməsində Cənubi Qafqazın lider dövləti olan Azərbaycanın region iqtisadiyyatının ümumi arxitekturasının müəyyən edilməsində rolunu daha da möhkəmləndirəcək.

*(davamı 2-ci səhifədə)*

## 30 il regiona turist səfərləri etməklə kifayətlənən təşkilata güvən yoxdur

**Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) fəaliyyətdə olan sədri, Maltanın xarici işlər naziri Yan Borq Azərbaycana səfər edəcək.**



**O, ölkəmizə Cənubi Qafqaza səfəri çərçivəsində gələcək. Əvvəlcə qeyd etmək lazımdır ki, bu, Y.Borqun Bakıya ilk gəlişidir. Çünki qurum rəsmisi cari ilin yanvarında keçmiş sədr Buyar Osmaninin yerinə təyin olunub. İndiki məqamda Yan Borqun regiona səfəri təəccüblü deyil. Böyük ehtimalla o, bölgə dövlətləri ilə əlaqələri dərinləşdirməyi, eləcə də təmsil etdiyi təşkilatın Cənubi Qafqazla maraqlandığını göstərməyi hədəfləyir.**

(davamı 4-cü səhifədə)



## Azərbaycan yaşıl dünya uğrunda öncüllərdəndir

➡ səh. 5



## İrəvanətrafı ərazilərdə ermənivəhşilikləri

➡ səh. 7



## Azərbaycana təhdid tam əsassızdır

➡ səh. 5

# Separatizmin qalıqları və izləri silinir

**2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu genişmiqyaslı təxribatına cavab olaraq Azərbaycan Ordusunun bölmələri əks-hücum əməliyyatına başladı.**



44 gün davam edən Vətən müharibəsi nəticəsində otuz illik işğala son qoyuldu, ərazi bütövlüyümüz təmin edildi. Prezident İlham Əliyevin rəhbərliyi ilə qazanılmış möhtəşəm Zəfər tariximizə qızıl hərflərlə həkk olundu. Müharibədəki qələbəmizin rəmzi olaraq Azərbaycan, Rusiya və Ermənistan arasında imzalanan üçtərəfli Bəyanata əsasən tərəflər üzərinə bir sıra mühüm öhdəliklər götürdülər.

**(davamı 5-ci səhifədə)**



## Sülhməramlıların Qarabağı tərk etməsi xainlərə sərt şillədir

**17 aprel tarixində Azərbaycan daha bir uğura imza atdı. Rusiya sülhməramlı kontingentinin Qarabağı tərk etməsi həm siyasi uğur, həm də bir çox xain düşüncələrə tutarlı cavab oldu.**

Məlumdur ki, sülhməramlılar Azərbaycan, Rusiya və Ermənistan arasında imzalanmış üçtərəfli Bəyanata əsasən, Qarabağdakı təmas xəttində və Laçın dəhlizi boyu 1960 nəfər silahlı hərbi qulluqçudan, 90 hərbi zirehli texnika, 380 ədəd avtomobil və xüsusi texnikadan ibarət kontingentlə yerləşdirilmişdi. Həmin vaxt sülhməramlıların postlarının sayı 27 olsa da, sonradan onların sayı 30-a çatdırılmışdı.

**(davamı 6-cı səhifədə)**

**Brüsseldə keçirilən məlum 5 aprel görüşü əslində beynəlxalq ictimaiyyəti aldatma cəhdidir.**




## Brüssel görüşünün gizlinləri - ABŞ və Aİ-nin "inkar" taktikası

Baş nazir Nikol Paşinyanın Aİ və ABŞ-ın hərbi "təhlükəsizliklə" bağlı təkliflərini qəbul etməsi, iqtisadi sahədə bəyan edilən imtiyazlardan daha çoxunun "əl altından" ötürülməsi Cənubi Qafqaza təsirlərin artmasına, yad qüvvələrin maraqları daxilində psevdodövlət olan Ermənistandan "maşa" kimi faydalanma cəhdlərinə təkan verir.

**(davamı 4-cü səhifədə)**

# Güclü iqtisadiyyat, güclü dövlət

(əvvəli 1-ci səhifədə)

Bugünkü Azərbaycan reallıqları deməyə əsas verir ki, sabitlik, təhlükəsizlik və inkişaf 20 illik tariximizi xarakterizə edən əsas amillərdir. Məhz bu uğurlu göstəricilər Prezident İlham Əliyevin "Güclü dövlət, güclü iqtisadiyyat və sosial rifah" konsepsiyası ilə Azərbaycanı dünyada inkişaf etməkdə olan ölkələr sırasına daxil edib. Ölkəmiz dünyada özünü etibarlı tərəfdaş kimi təsdiqləyib. Nəhəng neft-qaz layihələrinin reallaşdırılması göstərir ki, bütün öhdəliklər uğurla yerinə yetirilir. Hər bir çağırışı sülhə, sabitliyə, təhlükəsizliyin təminatına yönələn Azərbaycan həm də Mərkəzi Asiya ölkələrinin Cənubi Qafqazla münasibətlərində birləşdirici rol oynayır. Respublikamız artıq beynəlxalq aləmdə iqtisadi, siyasi, mədəni, humanitar, diplomatik mərkəz kimi böyük nüfuz qazanıb. İnvestisiya cəlbediciliyini qoruyan ölkəmizin iqtisadi inkişaf modeli beynəlxalq səviyyədə təqdir edilir.

Müasir dövrdə azad iqtisadi zonalar xarici ticarət strategiyasının vacib halqalarından birini təşkil edir. Belə ki, azad iqtisadi zonalar kapitalın ölkə iqtisadiyyatına cəlb olunması ilə yanaşı, ixrac səbətinin həm çeşidini, həm də coğrafiyasını genişləndirməyə şərait yaradır. Bu da birbaşa və dolayısı ilə valyuta daxilolmalarının artmasına, müasir texnologiyalara çıxış imkanına pozitiv təsir göstərir ki, son nəticədə milli iqtisadiyyat dayanıqlı inkişaf edir və dünya bazarına daha səmərəli inteqrasiya olunur.

Azərbaycanda Prezident İlham Əliyevin "Ələt Azad İqtisadi Zonasının yaradılması və fəaliyyətinin təşkili haqqında" 2020-ci il 22 may tarixli Fərmanı ilə Ələt Azad İqtisadi Zonası yaradılmışdır. 2023-cü il iyunun 8-də Ələt Azad İqtisadi Zonasının birinci mərhələsinin açılışı mərasimində Prezident İlham Əliyev iştirak edib və iqtisadi zonanın yaradılması ideyası, səbəbləri və ölkə iqtisadiyyatına verəcəyi müsbət nəticələrə toxunaraq: "Azad İqtisadi Zonanın yaradılmasında əsas məqsəd qabaqcıl idarəetmə təcrübəsinə uyğun yüksək əlavə dəyərli və ixracyönümlü istehsalı təmin etməkdir. İnnovativ texnologiyalardan istifadə edərək xidmətlər göstərən investorları cəlb etmək, bu şirkətlərin Azərbaycan şirkətləri ilə əməkdaşlığının təmin olunması nəticəsində ölkə iqtisadiyyatının dinamik və dayanıqlı inkişafına töhfə vermək, həmçinin on minlərlə yeni iş yeri yaratmaq da əsas hədəflərdəndir" - deyə bildirmişdir. Ələt Azad İqtisadi Zonası Bakı Beynəlxalq Dəniz Ticarət Limanının və qlobal nəqliyyat dəhlizlərinin (Orta Dəhliz və Şimal-Cənub dəhlizi) üzərində yerləşir və investorlar əlavə dəyər vergisi, ödəmə mənbəyində vergi, mənfəət və hər hansı digər korporativ vergidən azaddır.

Bu gün dünyanın müxtəlif bölgələrində müharibələr, münaqişələr, qanlı toqquşmalar baş verir. Ölkəmizdə isə sülh, sabitlik, əmin-amanlıq hökm sürür, inkişaf, quruculuq prosesləri uğurla gedir. Bu, dövlətimizin, xalqımızın böyük nailiyyəti və uğurudur. Hazırda həyata keçirilən islahatlar belə deməyə əsas verir ki, bir neçə ildən sonra Azərbaycan iqtisadiyyatı neft sektorundan asılılığı minimum dərəcədə olan dövlətlər sırasında olacaqdır və ölkəmiz bu yolda daha inamla irəliləməyi və yeni dövrün islahatlarını maksimum qısa zaman kəsiyində başa vurmağı hədəfləyir. Yürüdülən uğurlu, qətiyyətli siyasət, həyata keçirilən Dövlət proqramları və makroiqtisadi layihələr Azərbaycan iqtisadiyyatını daha da gücləndirir. Sosial-iqtisadi inkişafda əldə edilən böyük nailiyyətlər, islahatların düşünülmüş şəkildə aparılması, onun müasirləşməsi sosial dəyişikliklərin keçirilməsinə kompleks yanaşma zəminində baş verir. Azərbaycan Prezidenti İlham Əliyev deyib: "Əminəm ki, Azərbaycan iqtisadi cəhətdən güclü ölkəyə çevriləcək və digər ölkələrə nümunə olacaqdır. Mən Azərbaycanı belə görmək istəyirəm".








**Bu, Azərbaycanın yeni inkişaf hədəflərinin əsasını təşkil edir**

**Mustafa KAMAL, "Respublika".**

## Azərbaycan Milli Məclisi ilə Yeni Kaledoniya Konqresi arasında Əməkdaşlıq haqqında Memorandum imzalanıb

**Azərbaycan Respublikasının Milli Məclisi ilə Yeni Kaledoniya Konqresi arasında Əməkdaşlıq haqqında Memorandum imzalanıb.**

AZƏRTAC xəbər verir ki, sənədi Azərbaycan Milli Məclisinin sədri Sahibə Qafarova və Yeni Kaledoniya Konqresinin sədri Rok Vamitanın adından Yeni Kaledoniya Konqresinin İnfrastruktur, ərazi planlaşdırılması, davamlı inkişaf, energetika, nəqliyyat və rabitə komitəsinin sədri, Kənd Təsərrüfatı Agentliyinin sədri Omayra Naiselin imzalayıblar.

İmzalanma mərasimində Milli Məclisin sədri Sahibə Qafarova deyib ki, bu sənəd parlamentlərimiz arasında əlaqələrin inkişaf etdirilməsi üçün hüquqi bazanın formalaşdırılması baxımından vacib əhəmiyyətə malikdir və əməkdaşlığımızın çərçivəsini müəyyənləşdirəcək.

Qeyd edək ki, Memorandumda bir sıra vacib məqamlar əks olunub. Sənəddə Azərbaycan və Yeni Kaledoniya xalqları arasında dostluq əlaqələrinin möhkəmləndirilməsi naminə parlamentlərarası əməkdaşlığın inkişaf etdirilməsi niyyəti ifadə edilib. Bu məqsədlə iki ölkənin parlamentlərinin komissiyaları, komitələri və orqanları arasında daimi əlaqələrin yaradılmasına kömək göstərilməsi, həmçinin parlament, beynəlxalq fəaliyyət təcrübələrinin öyrənilməsi və bölüşülməsi məqsədilə deputatlardan ibarət nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin təşkili nəzərdə tutulub.

Sənəddə tərəflər arasında əməkdaşlığı inkişaf etdirmək üçün deputatlardan ibarət müvafiq qrupun yaradılması və bu qrupun fəaliyyətinin hər vasitə ilə təşviqi də əksini tapıb. Bunlarla yanaşı, Azərbaycan ilə Yeni Kaledoniya arasında beynəlxalq parlament arenasında əməkdaşlığın müxtəlif istiqamətlərinin araşdırılması, nəzərdən keçirilməsi, inkişaf etdirilməsi və reallaşdırılması üçün fəal səylərin göstərilməsi planlaşdırılır.

Tərəflər qanunverici orqanların səmərəli fəaliyyətinə müsbət töhfə verə biləcək təcrübə mübadiləsinin aparılması məqsədilə Milli Məclisin Aparatı ilə Yeni Kaledoniya Konqresinin Bürosu arasında daimi əlaqələrin yaradılmasına da razılıq veriblər. ■



*Yeni kaledoniyalı parlamentari:*

## COP29-un dünyada iqlim dəyişiklikləri istiqamətində mövcud problemlərin həllinə töhfə verəcəyinə inanıram

**Aprelin 18-də Milli Məclisin sədri Sahibə Qafarova Yeni Kaledoniya Konqresinin İnfrastruktur, ərazi planlaşdırılması, davamlı inkişaf, energetika, nəqliyyat və rabitə komitəsinin və Kənd Təsərrüfatı Agentliyinin sədri Omayra Naiselinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**



AZƏRTAC xəbər verir ki, görüşdə S.Qafarova Yeni Kaledoniya Konqresinin nümayəndə heyətinin Azərbaycana səfərinin iki ölkənin parlamentləri arasında əməkdaşlığın inkişafı üçün qarşılıqlı marağın və niyyətin olduğunu göstərdiyini bildirib. Bu mənada səfər çərçivəsində keçiriləcək görüşlərin və aparılacaq müzakirələrin parlamentlər arasında əlaqələrin möhkəmləndirilməsi baxımından faydalı olacağına inam ifadə edilib.

Bugünkü görüşün parlamentlər arasında ilk təmas olduğu xatırladılıb, əlaqələrimizin inkişafı üçün yaxşı imkanlar olduğu, ilk növbədə, əlaqələrin hüquqi bazasının formalaşdırılmasının vacibliyi vurğulanıb.

Görüşdə, həmçinin parlamentlərdə dostluq qruplarının təsis olunması, qarşılıqlı səfərlərin həyata keçirilməsi, qanunverici orqanlarımızın komitə və komissiyaları arasında əməkdaşlığın yaradılması məsələləri nəzərdən keçirilib.

Öz növbəsində Omayra Naiselin Yeni Kaledoniyanın yerli xalqı - kanakların 170 il sürən fransız müstəmləkəçiliyi altında üzləşdiyi faciəvi aqibətindən söz açıb, ölkəsində insan haqlarının kobud şəkildə pozulması hallarının, davam edən təzyiq və təqiblərin, həmçinin son illərdə keçirilən seçkilərdə müşahidə olunan qanunsuzluqların Fransa hökumətinin bu ölkəyə qarşı həyata keçirdiyi məqsədyönlü siyasətin tərkib hissəsi olduğunu bildirib.

O, Azərbaycanın Yeni Kaledoniyaya göstərdiyi dəstəyə görə təşəkkürünü ifadə edib.

Fransanın sülh və sabitlik pərdəsi adı altında sırımağa çalışdığı boş vədlərin uzun illər boyu onun ölkəsinə yalnız böyük faciələr gətirdiyini deyən qonaq Parisin Numea və Matinyon müqavilələrindən irəli gələn öhdəliklərini hələ də yerinə yetirmədiyini diqqətə çatdırıb. Qeyd edib ki, özünü dünyada azadlıq və demokratiya carçısı kimi qələmə verən Fransa insanların təməl hüquqlarını heçə sayır, yürütdüyü müstəmləkəçilik siyasəti ilə Yeni Kaledoniyada qeyri-sabitliyə gətirib çıxaran prosesləri fəal şəkildə dəstəkləməkdədir.

Parlamentin sədri Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövründə irəli sürdüyü təşəbbüslər barədə danışıb, neokolonializmə qarşı mübarizəyə dəstək nümayiş etdirdiyini deyib.

Görüşdə Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövründə yaradılmış Bakı Təşəbbüs Qrupunun fəaliyyətinə də toxunulub.

Söhbət zamanı Milli Məclisin dünyanın bir çox ölkələrinin parlamentləri ilə beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığından söz açılıb, 2021-ci ildə Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılmış Parlament Şəbəkəsinin fəaliyyəti haqqında məlumat verilib.

Yeni Kaledoniya nümayəndə heyətinin rəhbəri ölkəsinin üzləşdiyi iqlim dəyişikliklərindən yaranan çağırışlar barədə də danışıb, Azərbaycanın ev sahibliyi edəcəyi COP29-un dünyada bu istiqamətdə mövcud olan problemlərin həllinə töhfə verəcəyinə inamını ifadə edib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barədə də fikir mübadiləsi aparılıb. ■

## Yeni Kaledoniya Konqresinin nümayəndə heyəti Bakı Təşəbbüs Qrupunun ofisində olub

**Yeni Kaledoniya Konqresinin İnfrastruktur, ərazi planlaşdırılması, davamlı inkişaf, energetika, nəqliyyat və rabitə komitəsinin sədri xanım Naisseline Omayranın rəhbərlik etdiyi nümayəndə heyəti aprelin 18-də Bakı Təşəbbüs Qrupunun ofisində olub.**

AZƏRTAC xəbər verir ki, qonaqları ölkəmizdə görməkdən məmnunluğunu ifadə edən Bakı Təşəbbüs Qrupunun



icraçı direktoru Abbas Abbasov nümayəndə heyətini Qrupun fəaliyyət istiqamətləri, məqsədləri və gələcək planları barədə məlumatlandırıb.

Söhbət zamanı Yeni kaledoniyalı parlamentarilər iki ölkənin nümayəndələri arasında fikir mübadiləsinin genişləndirilməsi üçün yaratdığı şəraitə görə Azərbaycan hökumətinə minnətdarlıqlarını ifadə ediblər.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Sonda nümayəndə heyəti tərəfindən Bakı Təşəbbüs Qrupunun ofisinə xatirə hədiyyəsi təqdim olunub. ■

## Milli Məclisdə "Yeni Kaledoniya: Tarix, müasir çağırışlar və gözlənilən gələcək" mövzusunda elmi konfrans keçirilib

**Aprelin 18-də Milli Məclisdə "Yeni Kaledoniya: tarix, müasir çağırışlar və gözlənilən gələcək" mövzusuna həsr edilmiş elmi konfrans keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbirin moderatoru - Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc konfransda aparılacaq müzakirələrin əhəmiyyətindən söz açıb. Son illər ölkəmizin müasir müstəmləkəçilik əleyhinə hərəkatın önündə getdiyini təqdirlə vurğulayan komitə sədri Vətən müharibəsində Azərbaycanın parlaq Qələbəsindən sonra Fransanın ölkəmizə qarşı aşkar ədalətsiz mövqe tutmasının onun müxtəlif diplomatik-siyasi pərdələrlə örtülən çirkin imperialist siyasətini ifşa etdiyini bildirib. Ölkəmiz əleyhinə kampaniya aparan rəsmi Parisin Cənubi Qafqazda hər bir vəchlə yerləşmək cəhdləri, Ermənistandan alət kimi faydalanmaq planı onun müstəmləkə siyasətinin mahiyyətindən irəli gəlir. Lakin Prezident İlham Əliyev neoimperial siyasətlərə qarşı əzmlə və qətiyyətlə dayanıb. Bu məqsədlə yaradılan Bakı Təşəbbüs Qrupu dövlətimizin siyasi iradəsinin nümayişidir.




Yeni Kaledoniya Konqresinin İnfrastruktur, ərazi planlaşdırılması, davamlı inkişaf, energetika, nəqliyyat və rabitə komitəsinin sədri, Kənd Təsərrüfatı Agentliyinin sədri Omayra Naisselin hazırda Yeni Kaledoniya adasını öz müstəmləkəsi kimi idarə edən Fransanın yerli kanak xalqına qarşı yürütdüyü imperialist siyasətindən, hüquqlarının pozulmasından söz açıb, onların azadlıq mübarizəsindən və bu mübarizədə üzləşdiyi çətinliklərdən bəhs edib. O bildirib ki, Fransa Yeni Kaledoniya xalqının öz müqəddəratını özünün təyin etməsi və müstəqil olması ilə bağlı üzərinə götürdüyü öhdəliklərə əməl etmir, konstitusiyaya, seçki qanunvericiliyinə müdaxilə edərək yerli xalqın hüquqlarını məhdudlaşdırmağa çalışır.

Omayra Naisselin Yeni Kaledoniyanın apardığı azadlıq mübarizəsinə verdiyi dəstəyə görə Azərbaycana minnətdarlığını bildirib. O deyib ki, parlamentlərimiz arasında bağlanan əməkdaşlıq memorandumu Yeni Kaledoniyaya bir çox sahələrdə yeni qapılar açacaq.

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov Azərbaycanın Qarabağ Zəfərinin müasir dünyaya xalqların rifahının və hüquqlarının təmin edilməsinin daha bir nümunəsini göstərdiyini bildirib. Vurğulayıb ki, Fransanın Azərbaycana qarşı ədalətsiz mövqeyi, öz imperialist siyasəti ilə Yeni Kaledoniya kimi dövlətləri əsarətdə saxlaması demokratiya prinsiplərinə və insan hüquqlarının aliliyinə ziddir.

Bakı Təşəbbüs Qrupunun icraçı direktoru Abbas Abbasov isə Azərbaycanın beynəlxalq arenada dekolonizasiya prosesini təşviq etməsindən, müstəmləkəçilikdən əziyyət çəkən xalqların haqlı mübarizəsini dəstəkləməsindən danışıb, Qrupun fəaliyyəti, kolonializmlə mübarizə istiqamətində həyata keçirdiyi tədbirlər barədə məlumat verib.

Digər çıxış edənlər Fransanın yeni müstəmləkəçilik siyasəti, xalqları əsarətdə saxlaması, onların təbii sərvətlərini talan etməsi və digər məsələlər barədə fikirlərini bildiriblər.

Yeni Kaledoniya parlament nümayəndə heyətinin üzvləri Azərbaycanın Qoşulmama Hərəkatının sədri kimi onların ədalət və azadlıq uğrunda apardıqları haqlı mübarizədə göstərdiyi ardıcıl dəstəyə və konfransın ölkəmizdə təşkilinə görə minnətdarlıqlarını ifadə ediblər. ■

## Yeni Kaledoniya Konqresinin nümayəndə heyətinin ölkəmizə səfərinin yekunlarına dair mətbuat konfransı

**Aprelin 18-də ölkəmizdə səfərdə olan Yeni Kaledoniya Konqresinin İnfrastruktur, ərazi planlaşdırılması, davamlı inkişaf, energetika, nəqliyyat və rabitə komitəsinin sədri xanım Omayra Naisselin rəhbərlik etdiyi nümayəndə heyətinin ölkəmizə səfərinin yekunlarına dair Milli Məclisdə mətbuat konfransı keçirilib.**



AZƏRTAC xəbər verir ki, nümayəndə heyətinin rəhbəri onun ölkəsinin azadlıq mübarizəsində verilən dəstəyə görə Azərbaycan Hökumətinə, Qoşulmama Hərəkatına və Bakı Təşəbbüs Qrupuna təşəkkürünü bildirib. Qonaq diqqətə çatdırıb ki, bu gün Milli Məclis ilə Yeni Kaledoniya Konqresi arasında imzalanmış Əməkdaşlıq haqqında Memorandum daha səmərəli əməkdaşlığa öz töhfəsini verəcək.

Mətbuat konfransında jurnalistlərin suallarını cavablandıran Omayra Naisselin Yeni Kaledoniyanın müstəqillik uğrunda mübarizəsi, bu ölkənin BMT ilə əməkdaşlığı, 1980-ci illərdən müstəmləkədən azad edilməli dövlətlər siyahısına salınmasına baxmayaraq, öz müqəddəratını təyinetmə məqsədilə keçirilmiş referendumlara Fransanın müdaxilə edərək nəticələri saxtalaşdırması, bu ölkənin öz müstəmləkəsi hesab etdiyi xalqların azadlıq mübarizəsini boğması və bu məqsədlə qanunvericiliyə dəyişikliklər etməyə çalışması, imzalanmış sazişlərə baxmayaraq, Fransanın öz öhdəliklərini yerinə yetirməməsi barədə fikirlərini açıqlayıb. O bildirib ki, keçirilmiş referendumun nəticələrinə üçüncü baxışın düzgün aparılmaması ilə bağlı Beynəlxalq Ədalət Məhkəməsinə müraciət olunub. Çünki bu, Kaledoniya xalqı üçün mühüm əhəmiyyət daşıyır.

Mətbuat konfransında jurnalistlərin suallarını cavablandıran Yeni Kaledoniya Konqresinin nümayəndə heyətinin üzvləri Jan-İv Poedi və Moris Vimian Fransanın assimilyasiya siyasətini tənqid ediblər. Onlar Kaledoniya xalqının milli mənsubiyyətini, mədəniyyətini qoruması üçün gördüyü tədbirlər, bu ölkədə müstəqillik tərəfdarı olan hərəkatların fəaliyyəti, gələcək nəsillərin öz milli kimliyinə bağlı insanlar kimi tərbiyə olunması üçün tədris proqramlarının əhəmiyyəti barədə fikirlərini bölüşüblər. ■

*Bu gün qalib Azərbaycanın dünyaya səs salan uğurları, yaratdığı yeni reallıqlar təbii ki, düşünülmüş və məqsədyönlü, möhkəm təmələ əsaslanan siyasətin nəticəsidir. Dövlət qurmaq, müstəqil yaşamaq bəşər tarixində heç də bütün xalqlara nəsib olmur. Azərbaycan 1991-ci il 18 oktyabr tarixində müstəqilliyini yenidən bərpa etdi. Müstəqilliyimizin ilk illərində Azərbaycana rəhbərlik edənlərin siyasi savadsızlığı, idarəçilik qabiliyyətlərinin olmaması, şəxsi ambisiyalarını dövlət maraqlarından üstün tutmaları ucbatından ölkəmiz müstəqilliyini itirmək, bir dövlət olaraq dünya xəritəsindən silinmək təhlükəsini yaşadı. Daxili çəkişmələr, Ermənistanın təcavüzü, ölkəni idarə edənlərin həyata keçirdiyi siyasətin fəsadları böyük çətinliklər yaratdı, dövlət müstəqilliyinin taleyini sual altına aldı. Bir həqiqət var ki, milli lider dövlətin özünütəsdiqində, beynəlxalq siyasətin formalaşmasında mühüm rol oynayan əsas amildir. Tarixi nailiyyətimiz olan müstəqilliyimizin daimi, sarsılmaz olması üçün hansı mərhələlərin yaşandığı unudulmamalı, indiki və gələcək nəsillərə çatdırılmalıdır. Dövlətinin, xalqının gələcəyini düşünən, daim ölkəsini zirvələrdə görmək istəyən Liderə milyonların sevgisi şəksizdir. Əbəs yerə deyilmir ki, müasir müstəqil Azərbaycan Ümummilli Lider Heydər Əliyevin şah əsəridir.*

# Tarixi qayıdışın və xilaskarlıq missiyasının uğur düsturu

Azərbaycanın ən çətin günlərində xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev zəngin idarəçilik təcrübəsindən bəhrələnərək ölkəmizi parçalanmaqdan xilas etdi, yeni Azərbaycan qurdu. O illərdə "olum, ya ölüm!" dilemması qarşısında qalan Azərbaycanı bu gün qalib ölkə kimi görürüksə, bu, böyük səylərin, qətiyyətin, dövlətini, xalqını sevən və onun gələcəyi barədə düşünən Liderin yaratdığı möhkəm təməlin, düzgün müəyyənləşdirdiyi yolun nəticəsidir. Ümummilli Lider Heydər Əliyev tarixi qayıdışı ilə xilaskarlıq missiyasını uğurla yerinə yetirdi. Azərbaycanın hazırkı iqtisadi inkişafının, dünya birliyində söz sahibliyinin, qalib ölkə kimi nüfuz qazanmasının təməlində həmin tarixi qayıdış dayanır. Azərbaycanın müstəqilliyini əbədi, dönməz, sarsılmaz edən Ümummilli Lider Heydər Əliyev ilk gündən bu çağırışı etdi ki, sabitlik olmasa, hansısa sosial-iqtisadi layihənin həyata keçirilməsindən danışmaq mümkün deyil. Ulu Öndər Heydər Əliyev ölkəni vətəndaş qarşıdurması və hərc-mərclik, dərin iqtisadi və sosial-siyasi böhran vəziyyətindən çıxarmağa, onu sabit inkişaf səviyyəsinə yüksəltməyə nail oldu.

Azərbaycan yerləşdiyi coğrafi məkana, malik olduğu təbii resurslara görə daim dünyanın diqqətində olub. Müstəqilliyimizin bərpasının ilk illərində ölkədə ictimai-siyasi durumun gərginliyi Azərbaycanla iqtisadi əlaqələrin qurulmasında maraqlı olan dövlətlərin tərəddüdlərinə səbəb oldu. Bu dövlətlər, şirkətlər yatıracaqları investisiyaların təhlükəsizliyinə tam əmin deyildilər. Ümummilli Lider "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir" çağırışı ilə hər bir ölkənin inkişafında iqtisadi amilin rolunu önə çəkərək əlaqələrin inkişafı üçün mühüm şərait yaratdı. Azərbaycan qısa müddətdə sabitlik diyarına, böyük investisiyalar məkanına çevrildi. Ümummilli Lider bu reallığı da diqqətə çatdırdı ki, heç bir ölkə təcrübə mübadiləsi olmadan, səylər birləşdirilmədən təkbaşına iqtisadi tərəqqiyə nail ola bilməz. 1994-cü il 20 sentyabr tarixində "Əsrin müqaviləsi"nin imzalanması bunun təsdiqi oldu. Bu saziş Azərbaycanın iqtisadi və siyasi mövqeyini möhkəmləndirdi, ölkəmizə inamı artırdı. "Əsrin müqaviləsi"ndən sonra imzalanan sazişlərin say tərkibinə diqqət yetirmək kifayətdir. "Əsrin müqaviləsi" Azərbaycanın qarşısında geniş imkanlar açdı, dünya iqtisadi sisteminə inteqrasiyasını sürətləndirdi. Ölkəmizə inamın fonunda illər keçdikcə imzalanan sazişlərin, Anlaşma Memorandumlarının sayı artdı. Azərbaycan ölkəmizə xoş niyyətlə ayaq basan bütün iş adamlarına qapılarını açdı, onların yatıracaqları investisiyaların təhlükəsizliyinin təmin olunacağını bəyan etdi. Bu baxımdan "Əsrin müqaviləsi"nin əhəmiyyətindən bəhs edərkən onun yalnız iqtisadi deyil, siyasi tərəfi də xüsusi önəm daşıyır. Ulu Öndər Heydər Əliyevin iqtisadiyyatın inkişafında neft amilinə önəm verməsi onun uzaqgörən siyasətinin nəticəsi idi. "Üç dəniz əfsanəsi" adlandırılan və strateji əhəmiyyəti ilə seçilən layihənin əfsanədən gerçəkliyə çevrilməsi Azərbaycana çox böyük siyasi və iqtisadi gəlir gətirdi. İllər keçdikcə əməkdaşlığın coğrafiyasının genişləndirilməsi, regional çərçivədən beynəlxalq səviyyəyə çıxması Azərbaycanın etibarlı, arzuolunan tərəfdaş kimi mövqeyini möhkəmləndirir. Hazırda çoxtərəfli əməkdaşlığın nümunəsi olan Cənub Qaz Dəhlizinin əsas tərkib hissələri olan TAP-ın və TANAP-ın genişləndirilməsi əsas hədəflər sırasındadır. Azərbaycan iştirakçısı və təşəbbüsçüsü olduğu enerji layihələrinin reallığa çevrilməsi ilə dünyanın enerji təhlükəsizliyinin təminatında rolunu artırır.

İqtisadi və siyasi islahatların vəhdətinin qorunması hərtərəfli inkişafa yol açdı. Azərbaycanın demokratik inkişafı təmin edildi, əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində mühüm addımlar atıldı, ordu quruculuğu dövlətin siyasətində əsas istiqamətlərdən biri oldu, iqtisadi müstəqilliyimizin möhkəmləndirilməsi əsasında ölkəmizin siyasi çəkisi və nüfuzu artdı.

Azərbaycanın hər bir sahədə qazandığı uğurlar Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. 2023-cü ilin Prezident İlham Əliyevin Sərəncamı ilə ölkəmizdə "Heydər Əliyev İli" elan edilməsi Azərbaycanın çoxəsrlik tarixinin hər bir səhifəsinin vərəqlənməsinə, öyrənilməsinə, yeni araşdırmaların aparılmasına, eyni zamanda yeni kitabların çap olunmasına geniş imkanlar açdı. Son 20 ildən artıq dövrdə Heydər Əliyev siyasətini bütün sahələrdə uğurla davam etdirən Prezident İlham Əliyev geniş islahatları, yeniliyi özündə ehtiva edən addımları ilə ölkəmizi Ümummilli Lider Heydər Əliyevin görmək istədiyi Azərbaycan səviyyəsinə yüksəltdi. Cənab İlham Əliyevin ötən il Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə xalqa müraciətini məhz Qarabağdan, azad Şuşadan çatdırması bunun bariz nümunəsidir. Cənab İlham Əliyev sözügedən müraciətində bu məqamı xüsusi qeyd etmişdir: "Mən bu təbrik müraciətimi Bakıdan da edə bilərdim. Amma hesab etdim ki, mən bu gün burada olmalıyam, Şuşada olmalıyam, bu binanın önündə olmalıyam. Şuşa Zəfərimizin rəmzidir, Şuşa Zəfərimizin tacıdır. Şuşa işğaldan azad olunanda, bax, bu meydanda qəhrəman Azərbaycan hərbçiləri mənə Şuşanın azad olunması ilə bağlı raport vermişlər. Bu binanın damında Azərbaycan Bayrağı qaldırılmışdır və Şuşanın azad olunması bizim tarixi Zəfərimizin əsas hissəsi idi". Dövlətimizin başçısı onu da qeyd etmişdir ki, Ulu Öndər Heydər Əliyevin ən böyük arzusu Şuşanı, Qarabağı və Zəngəzuru azad görmək idi. Biz onun və bütün Azərbaycan xalqının, bütün dünya azərbaycanlılarının arzusunu çin etdik.

Ulu Öndər Heydər Əliyevin xalqımız, dövlətimiz qarşısındakı xidmətlərindən bəhs edərkən Onun 2003-cü ildə xalqa tarixi müraciəti daha çox önə çəkilir. Çünki bu müraciət Azərbaycanın bugünkü və gələcək inkişafının əsası oldu. Məhz həmin müraciətində Ümummilli Lider belə bir əminliyi ifadə etmişdir ki, axıra çatdıra bilmədiyi işləri, planları cənab İlham Əliyev axıra çatdıracaq.

44 günlük İkinci Qarabağ müharibəsində tarixi Zəfərimiz, həmçinin ötən ilin sentyabrında həyata keçirilən lokal antiterror tədbirləri nəticəsində suverenliyimizin tam bərpa edilməsi Heydər Əliyev siyasətinin təntənəsidir. Rəşadətli ordumuzun gücü, qüdrəti sayəsində Azərbaycana tarixi Zəfəri yaşadan, ərazi bütövlüyümüzü və suverenliyimizi tam bərpa edən, xalqımızın yenilməz, məğrur xalq olduğunu bir daha dünyaya nümayiş etdirən qalib Prezidentimiz İlham Əliyev ata vəsiyyətini yerinə yetirdiyi üçün xoşbəxtdir.

Mayın 10-u müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, Ümummilli Lider Heydər Əliyevin doğum günü ilə yanaşı, eyni zamanda dahi şəxsiyyətin adını daşıyan Heydər Əliyev Fondunun yaradıldığı gündür. Fond tariximizə müstəqil dövlət qurucusu kimi daxil olmuş Heydər Əliyevin xatirəsinə xalqımızın ehtiramını ifadə etmək arzusundan, onun zəngin mənəvi irsini əks etdirmək, azərbaycançılıq fəlsəfəsinin ölkəmiz üçün əhəmiyyətini vurğulamaq, milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq zərurətindən irəli gələrək yaradılmışdır. 2004-cü ildən fəaliyyətə başlayan Heydər Əliyev Fondu təhsil, səhiyyə, mədəniyyət, idman, elm və texnologiya, ekologiya, sosial və digər sahələrdə müxtəlif layihələr həyata keçirərək yeni cəmiyyət quruculuğunda fəal iştirak edir, ölkənin sosial-iqtisadi inkişafına öz töhfəsini verir. Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə həyata keçirilən layihələr müxtəlif sahələri əhatə etməklə Azərbaycanın hərtərəfli inkişafına böyük dəstəkdir. Fondun tariximizin, həqiqətlərimizin dünya ictimaiyyətinə çatdırılması istiqamətində atdığı addımlar davamlılığı ilə diqqət çəkir və diplomatik mübarizədə qələbəmizdə öz payı vardır. Dövlət başçısı İlham Əliyevin Sərəncamı ilə 2017-ci ildə Mehriban xanım Əliyeva Azərbaycanın Birinci vitse-prezidenti təyin ediləndə Təhlükəsizlik Şurasının iclasında ölkə Prezidenti bu mühüm qərarın qəbul edilməsini şərtləndirən amillərdən bəhs edərkən Heydər Əliyev Fondunun fəaliyyətini xüsusi qeyd etmişdir.

Heydər Əliyev Fondunun Ümummilli Liderin dövlətimiz, xalqımız qarşısındakı xidmətlərinin təbliğində, Heydər Əliyev irsinin öyrənilməsində və gələcək nəsillərə çatdırılmasında xüsusi rolu vardır. Mehriban xanım Əliyevanın Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 86-cı ildönümü və Heydər Əliyev Fondunun fəaliyyətə başlamasının 5 illiyi münasibətilə keçirilən təntənəli mərasimdə səsləndirdiyi "Heydər Əliyevin həyatı böyük bir epoxanın aynası kimi ölkəmizin sevincli-kədərli günlərini və anlarını, Azərbaycanın bu tarix yollarını özündə əks etdirir. Məhz Heydər Əliyevin həyatı və fəaliyyəti sübut etdi ki, əlçatmaz xəyalların, arzuların reallaşması insan fenomeninin gücünə mümkündür… Heydər Əliyev qalibiyyətinin nəticəsi müasir müstəqil Azərbaycan Respublikası və onun bugünkü nailiyyətləridir" fikirləri dahi şəxsiyyətin xidmətlərinin ölçüyəgəlməzliyinin aydın mənzərəsini təqdim edir.

**Ayaz CƏBRAYILOV,**
**YAP Kürdəmir rayon təşkilatının sədri.**

# Baş prokuror Çin Xalq Respublikasında işgüzar səfərdədir

**Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Beynəlxalq Prokurorlar Assosiasiyasının İcraiyyə Komitəsinin 57-ci iclasında iştirak etmək üçün Çin Xalq Respublikasının Makau Xüsusi İnzibati Bölgəsinə işgüzar səfərə gedib.**



Baş Prokurorluqdan verilən məlumatda bildirilir ki, aprelin 18-də Kamran Əliyev Çinin Ali Xalq Prokurorluğunun Baş prokurorunun birinci müavini Tonq Cianminq və Makaunun Baş prokuroru İp Son Sanq ilə ikitərəfli görüş keçirib.

Nümayəndə heyətini səmimi salamlayan Baş prokurorun birinci müavini və Makaunun Baş prokuroru Azərbaycan və Çinin dost dövlətlər olduğunu bildirərək, bir çox sahəni əhatə edən uğurlu əməkdaşlığın davam etdirildiyini vurğulayıblar.

Baş prokuror Kamran Əliyev qonaqpərvərliyə görə minnətdarlığını bildirərək ölkələrimiz arasında əsrlər boyu mövcud olan ikitərəfli əlaqələrin tarixindən danışıb. Müstəqilliyin ilk illərində Ulu öndər Heydər Əliyevin, hazırda isə Prezident cənab İlham Əliyevin və Çin Xalq Respublikasının Sədri Si Cinpinin uzaqgörən siyasətləri nəticəsində iki ölkə arasında olan münasibətlərin yüksələn xətlə və uğurla inkişaf etdiyini vurğulayaraq, Azərbaycanın vahid Çin siyasətini, Çinin ərazi bütövlüyünü daim dəstəklədiyini vurğulayıb.

Baş prokuror cari ilin 29 sentyabr - 2 oktyabr tarixlərində Beynəlxalq Prokurorlar Assosiasiyasının 29-cu İllik Konfransı və Ümumi Yığıncağının ölkəmizdə keçiriləcəyini və bununla bağlı həmkarına dəvət məktubu ünvanladığını bildirib.

Daha sonra tərəflər prokurorluqlarımız arasında hüquqi və institusional əməkdaşlığın ikitərəfli və beynəlxalq platformalar çərçivəsində genişləndirilməsi perspektivləri barədə fikir mübadiləsi aparıblar.

Elə həmin gün ölkəmizin Baş prokuroru Kamran Əliyev Çinin Makau Xüsusi İnzibati Bölgəsinin İcra Hakimiyyətinin başçısı Ho İat Senq ilə görüşüb.

Baş prokuror keçirdiyi görüşlərdə Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında Azərbaycanın ərazi bütövlüyünün tam şəkildə bərpa olunduğunu, dövlət başçısının və ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın diqqət və qayğısı ilə Qarabağda sürətli bərpa və quruculuq işlərinin aparıldığını bildirərək, bu proseslərdə Çin şirkətlərinin də yer aldığını qeyd edib.

Kamran Əliyev həmçinin, dünyanın ən mötəbər beynəlxalq tədbirlərindən biri olan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un ölkəmizdə keçiriləcəyi barədə həmkarlarına məlumat verib.

Nümayəndə heyətinin Çin Xalq Respublikasına işgüzar səfəri davam edir.

**"Respublika".**

# Azərbaycan Vəkillər Kollegiyasının sədri Tbilisidə keçirilən konfransda COP29-un beynəlxalq əhəmiyyətindən danışıb

**Aprelin 18-də Tbilisidə "Hüquq və biznes icmalarının maarifləndirilməsi və nüfuzu" mövzusunda beynəlxalq hüquq konfransı keçirilib.**

AZƏRTAC xəbər verir ki, Böyük Britaniyanın Tbilisidəki səfirliyinin, İngiltərə və Uels Hüquq Cəmiyyəti və Gürcüstan Vəkillər Kollegiyasının birgə təşkil etdiyi tədbirdə ölkəmizi Azərbaycan Vəkillər Kollegiyasının sədri Anar Bağırovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib.

Konfransda beynəlxalq arbitraja xüsusi diqqət yetirməklə hüquqi xidmətlər, mübahisələrin həlli, sanksiyalar rejimi və qanunun aliliyi barədə məruzələr dinlənilib, biznes mühitinin inkişafında ingilis hüquq sistemi və onun Cənubi Qafqaz regionunda tətbiqi barədə fikir mübadiləsi aparılıb.

Anar Bağırov konfransda çıxış edərək ölkəmizdə hüquqi cəmiyyətin inkişaf perspektivləri, biznes mühitinin daha da yaxşılaşdırılması istiqamətində atılan mütərəqqi addımlar, vəkillik fəaliyyətinin inkişaf perspektivləri barədə ətraflı məlumat verib. Bildirib ki, forum beynəlxalq arbitraj, mübahisələrin həlli və qanunun aliliyi kimi həyati əhəmiyyətli sahələrdə hüquqi təcrübənin çərçivəsinin formalaşdırılmasında beynəlxalq əməkdaşlıq üçün geniş imkanlar açır.

Vəkillər Kollegiyasının sədri bu ilin noyabrında Azərbaycanın BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının 29-cu Tərəflər Konfransına (COP29) ev sahibliyi edəcəyini diqqətə çatdırıb. Vurğulayıb ki, bu, təkcə kritik iqlim problemlərini həll etmək üçün deyil, həm də hüquqi çərçivələr də daxil olmaqla, müxtəlif sektorlar üzrə əməkdaşlığı genişləndirmək üçün fürsət olacaq. Azərbaycanın mühüm ticarət yolları boyunca əlverişli mövqedə yerləşdiyini vurğulayan A.Bağırov deyib ki, xüsusilə Rusiya-Ukrayna müharibəsi fonunda Mərkəzi Asiya dövlətləri Qərblə ticarət əməliyyatlarını Azərbaycan və Gürcüstan vasitəsilə həyata keçirir. Bu kontekstdə ingilis hüququ ilə Azərbaycan hüququ arasında müqayisə olunmalı müxtəlif aspektlər var.



Azərbaycanda bu sahədə görülən işlərdən danışan Kollegiya sədri vurğulayıb ki, "Ələt Azad İqtisadi Zonası"nın tərkibində arbitraj mərkəzinin yaradılması istiqamətində işlər aparılır. Bundan əlavə, BP və SOCAR ölkəmizdə fəaliyyət göstərən çoxsaylı subpodratçılarla yanaşı, güclü iqtisadi baza ingilis hüquq prinsiplərinin inteqrasiyasına yardımçı olan əsaslı tərəfdaşlığın sübutudur. Azərbaycanın əhəmiyyətli enerji istehsal edən ölkə və Mərkəzi Asiya ölkələri üçün fəaliyyət göstərən ticarət mərkəzi kimi ikili statusu nəzərə alınmalı, hüquqi institutlar iqtisadi reallıqlara uyğunlaşdırılmalıdır.

"Biznes ictimaiyyətinin artan rekvizitlərini nəzərə alaraq, Azərbaycan Vəkillər Kollegiyası 2022-ci ildə biznes hüququ və mübahisələrin həlli üzrə ixtisaslaşmış hüquqşünasları formalaşdırmaqla Biznes Hüququ Komitəsini yaradıb. Bu Komitə arbitraj da daxil olmaqla biznes mübahisələrinin həlli üzrə ixtisaslaşmış hüquq ekspertləri ilə əməkdaşlıq edir", - deyə A.Bağırov vurğulayıb. ■



# ABŞ səfiri Ağdamın işğaldan azad edilmiş ərazisində səfərdə olub

**Aprelin 18-də ABŞ-ın Azərbaycandakı səfiri Mark Libbi və səfirliyin nümayəndələri Ağdam rayonunun işğaldan azad edilmiş ərazilərində səfərdə olublar. Nümayəndə heyəti Ağdamda fəaliyyət göstərən minaaxtaranları ziyarət ediblər.**

Verilən məlumata görə, səfər zamanı ABŞ səfiri Mark Libbi ABŞ Dövlət Departamenti tərəfindən maliyyələşdirilən ANAMA, Minalar üzrə Məsləhət Qrupu (MAG) və Beynəlxalq Avrasiya Mətbuat Fondu (BAMF) ilə birgə tərəfdaşlıqla həyata keçirilən "Məcburi köçkünlərin müharibədən zərər çəkmiş bölgələrə təhlükəsiz qayıdışına dəstək məqsədilə Azərbaycanın humanitar mina aksiyaları tədbirlərinə dəstək" layihəsinin heyəti, onların fəaliyyətləri və iş prosesləri ilə yaxından tanış olub. M.Libbi çıxışında mina qurbanlarının yaxınlarına, ailə üzvlərinə başsağlığı verib, mina hadisəsi zamanı xəsarət alanlara isə sağlamlıq arzu edib.

ABŞ səfiri Azərbaycanda qadın və kişilərdən ibarət ilk qarışıq minatəmizləmə qrupları ilə görüşü zamanı onların gördüyü işlərin əhəmiyyətindən danışıb:

"Çox sevinirəm ki, belə bir vacib işdə Azərbaycan qadınları da iştirak edir. Azərbaycanda tez bir zamanda mina ilə çirklənmiş ərazilərin təmizlənməsini arzu edirəm. ABŞ hökuməti də dünyada minaların təmizlənməsi prosesində yaxından iştirak edir. Dövlətimiz bu məsələdə böyük vəsaitlər xərcləyib. 1999-cu ildən bəri ABŞ Azərbaycana minalarla mübarizə humanitar proqramlarını dəstəkləmək üçün təxminən 38 milyon dollar ayırıb. Bundan sonra da Azərbaycanda mina təmizlənməsi işində ABŞ dövləti niyyətinə sadiq qalacaq və Qarabağın işğaldan azad edilmiş ərazilərində minadan təmizlənməsi işinə yaxından dəstək olacaq".

Daha sonra Azərbaycan Respublikası Minatəmizləmə Agentliyinin (ANAMA) İdarə Heyətinin sədr müavini Samir Poladov Azərbaycanın mina problemindən və minaların insanlara və təbiətə mənfi təsirindən danışıb. O, ölkənin ən vacib məsələlərindən olan mina probleminin həlli istiqamətində ANAMA-nın gördüyü işləri, qurumun QHT-lərin və beynəlxalq təşkilatların fəaliyyətinə dəstəyini və uğurlu nəticələri qonaqların diqqətinə çatdırıb. Həmçinin, o, BAMF-ın mina aksiyası çərçivəsində indiyədək həyata keçirdiyi önəmli layihələrini, təhlükəsiz və sağlam mühitin yaradılmasına töhfəsini və QHT kimi xüsusi rolunu vurğulayıb.

BAMF prezidenti Umud Mirzəyev çıxış edərək, ilk öncə, ABŞ səfirinə və dövlətinə Azərbaycanda mina aksiyasına verdikləri dəstəyə görə təşəkkürünü və minnətdarlığını bildirib:

"Azərbaycan bu gün çox ciddi bir problemlə üz-üzədir. Qarabağ başdan-başa minalarla çirkləndirilib və Azərbaycan xalqı hər an mina və partlayıcı sursatların təhlükəsi ilə yaşayır. Siz özünüz də bura gələrkən ərazilərin hansı səviyyədə çirkləndiyinin şahidi oldunuz. Biz isə vətəndaş cəmiyyəti təşkilatı olaraq əlimizdən gələni edəcəyik ki, minatəmizləmə prosesi sürətlənsin və məcburi köçkünlər tezliklə öz yurd-yuvalarına qayıtsınlar".

Umud Mirzəyev, həmçinin, ABŞ səfirinə BAMF-ın tarixi, təşkilatın çoxillik fəaliyyəti və ABŞ dövlətinin dəstəyi ilə fondun həyata keçirdiyi layihələr haqqında məlumat verib. O cümlədən BAMF-ın humanitar aksiyalarda iştirakı, minatəmizləmə fəaliyyəti, mina maarifləndirməsi və minadan zərərçəkənlərin problemləri ilə bağlı gördüyü işlərdən danışıb.

Minalar üzrə Məsləhət Qrupunun (MAG) ölkə direktoru Cenet Dikstra MAG, BAMF və APOPO əməkdaşlığından və təşkilatın fəaliyyətindən danışıb. O, təqdimatdan sonra minaaxtaranlara sertifikatların təqdim olunması üçün qonaqlara müraciət edib. Səfir Mark Libbinin, ANAMA-nın İdarə Heyətinin sədr müavini Samir Poladovun, BAMF prezidenti Umud Mirzəyevin, MAG-ın ölkə direktoru Cenet Dikstra və Texniki Sahə Meneceri Bobbi be Dirin iştirakı ilə qadın minaaxtaranlara sertifikatlar təqdim olunub.

Bundan başqa, minaaxtaran itlərlə və siçovullarla apardığı minatəmizləmə fəaliyyəti ilə seçilən APOPO təşkilatının fəaliyyəti haqqında da məlumat verilib. Səfir heyvanların minatəmizləmə fəaliyyətini izləyib və onların nəticələri ilə tanış olub.

Qeyd edək ki, səfər zamanı Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin məsləhətçisi Faiq Hacıyev və əməkdaşı Çapay Əmirov da iştirak ediblər.

Sonda ABŞ səfiri bu cür səfərlərin davam edəcəyini dilə gətirib: "Bu səfər sonuncu olmayacaq. İşğaldan azad edilmiş digər ərazilərə də səfərlərimiz davam edəcək".

**"Respublika".**

# Azərbaycan QHT-ləri, Qarabağ və Şərqi Zəngəzur sakinləri Norveç Nobel Komitəsinə açıq məktub ünvanlayıblar

**Azərbaycanın qeyri-hökumət təşkilatları (QHT), Qarabağ və Şərqi Zəngəzur sakinləri Norveç Nobel Komitəsinə açıq məktub ünvanlayıblar. AZƏRTAC məktubu təqdim edir:**

"Hörmətli Norveç Nobel Komitəsinin rəhbərliyi və üzvləri.

Biz - Azərbaycan QHT-lərinin, Qarabağ və Şərqi Zəngəzur sakinlərinin təmsilçiləri olaraq, Ruben Vardanyanın Nobel Sülh Mükafatına namizəd kimi irəli sürülməsi barədə mediada yayılmış xəbərləri hiddətlə qarşılayır, bu barədə Azərbaycan ictimaiyyətinin qəti mövqeyini diqqətinizə çatdırmaq istəyirik.

Ruben Vardanyanın həyat və fəaliyyəti Nobel Sülh Mükafatının rəhbər tutduğu ideal və dəyərlərə təhqir səciyyəsi daşıyır, bu adların yanaşı çəkilməsinin özü belə bu ali mükafatın dünyada qəbul edilmiş yüksək nüfuzuna ləkə gətirə, beynəlxalq ictimaiyyəti çaşdıra bilər.

Çirkli pulların yuyulması ilə sərvət toplamış kriminal ünsür, terrorçuluğu maliyyələşdirən sima kimi Ruben Vardanyan barədə ağır ittihamlar var. O, Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazilərində yaradılmış və sonradan özünü buraxmış qondarma separatçı rejimin - hərbi xuntanın bir müddət aparıcı rəhbər şəxslərindən biri olub.

Həmin dövrdə onun məhz sülhə əngəl olmaq niyyəti ilə Qarabağa gəlişi və ardıcıl yaydığı təxribat xarakterli açıqlamalar vəziyyəti artan xətt üzrə gərginləşdirib, o, Azərbaycan və Ermənistan arasında normallaşma prosesini pozmağa çalışıb.

Beynəlxalq hüququn normalarını heçə sayan Vardanyan Azərbaycan Respublikasının suverenliyini və ərazi bütövlüyünü təhdid edib, fəaliyyəti ilə Azərbaycan ərazisində "boz zona"nın saxlanmasını təşviq edib, azərbaycanlı məcburi köçkünlərin Xankəndiyə, Xocalıya və digər yaşayış məntəqələrinə qayıdışına mane olub.

Ruben Vardanyan kimiləri üçün çirkli pullardan müqəddəs heç nə yoxdur. Onu həmin dövrdə Qarabağa gətirmiş əsas motivlərdən birinin də məhz Ermənistan ordusunun Qarabağdakı tör-töküntülərini yenidən təşkilatlandırmaq yolu ilə Azərbaycanın bu ərazilərdəki qızıl və mis-molibden yataqlarını qanunsuz istismar etmək və daşımaq olması istisna deyil.

Ruben Vardanyan 2023-cü ilin sentyabrında Azərbaycan Respublikasının hüquq-mühafizə orqanları tərəfindən Qarabağdan qaçmaq istəyərkən saxlanılıb. O, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin terrorçuluğu maliyyələşdirmə, qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələrin və ya qrupların yaradılmasında və fəaliyyətində iştirak, Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə maddələri ilə ittiham olunur. Hazırda barəsində istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Ruben Vardanyanın bir çox ölkələrdə qaranlıq maliyyə fəaliyyətinə dair ciddi şübhələr var. 2019-cu ildə OCCRP (Mütəşəkkil Cinayətkarlıq və Korrupsiya Hesabatı Layihəsi) Vardanyanın qanunsuz fəaliyyəti ilə bağlı "Troyka Camaşırxanası" adlı araşdırma hesabatını dərc edib. Bu hesabatda Ruben Vardanyanın da iştirak etdiyi iddia edilən qeyri-qanuni fəaliyyətlərdən ibarət mürəkkəb şəbəkə ifşa edilib. 2019-cu ilin martında Avropa Parlamentinin üzvləri Avropa Komissiyasının sədrinə məktub yazaraq, "Troyka Dialoq"un keçmiş sahibi Ruben Vardanyana və "Troyka Dialoq"un "offşor sistemi" ilə əlaqəsi olan digər şəxslərə qarşı sanksiyaların tətbiq edilməsinin zəruriliyini bildiriblər. Məktubu Böyük Britaniya, İsveç, Almaniya və digər ölkələri təmsil edən 22 avropalı deputat imzalayıb.



Çirkli pullarla biznes imperiyası qurmuş beynəlxalq maliyyə fırıldaqçısı Ruben Vardanyanın əli dünyada günahsız insanların qanına bulaşıb, o, qanunsuz yollarla qazanc götürmək istədiyi hər yerdə terrorçuluğu maliyyələşdirməkdə iştirak edib.

Nobel Sülh Mükafatı özündə Alfred Nobelin təşviq etmək istədiyi sülh, barışıq və beynəlxalq əməkdaşlıq ruhunu təcəssüm etdirir. Biz Norveç Nobel Komitəsini çoxsaylı cinayətlərdə ittiham olunan Ruben Vardanyanla əlaqədar məsələyə yanaşmada Azərbaycan ictimaiyyətinin bu şəxs barədə aydın və qəti mövqeyini nəzərə almağa çağırırıq".

**İmzalar:**

**1. Fatma Səttarova - Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının İdarə Heyətinin sədri**

**2. Ramil İskəndərli - "Hüquqi Təhlil və Araşdırmalar" İctimai Birliyinin sədri**

**3. Azər Allahverənov - "Avrasiya Miqrasiya Təşəbbüsləri Platforması" İctimai Birliyinin sədri**

**4. Zaur İbrahimov - "Prioritet" Sosial İqtisadi Araşdırmalar Mərkəzi İctimai Birliyinin sədri**

**5. Günel Səfərova - "Vətəndaş" Tədqiqat və İnkişaf İctimai Birliyinin sədri**

**6. Əliməmməd Nuriyev - "Konstitusiya" Araşdırmalar Fondunun prezidenti**

*(İmzaların tam siyahısı ilə "respublika-news.az" saytında tanış ola bilərsiniz)*




*Avropa Şurası Nazirlər Komitəsinin sədri:*

## Azərbaycan nümayəndə heyəti tezliklə Parlament Assambleyasında öz layiqli yerinə qayıdacaq

**Məndən xahiş olunub ki, Azərbaycanla bağlı həll yolu tapmaq üçün Nazirlər Komitəsinin nə edəcəyi barədə ətraflı məlumat verim. Bir daha vurğulamaq istərdim ki, əsas məqsədimiz ümumi ideyalarımızı qorumaq və təbliğ etmək üçün birliyi gücləndirməkdir. Xüsusilə də Avropa Şurasının 75 illik yubileyi üçün simvolik olaraq vurğulayaq ki, Şura Avropada insan hüquqlarının üstünlüyünü, demokratiyanı və hüquqi dövləti təşviq etmək üçün 46 üzv dövlətin hökumətləri və parlamentləri arasında çoxtərəfli əməkdaşlıq üçün unikal platforma təklif edir.**

AZƏRTAC xəbər verir ki, bu fikirləri qurumun Nazirlər Komitənin sədri, Lixtenşteynin xarici işlər, təhsil və idman naziri Dominik Hasler Avropa Şurası Parlament Assambleyasının (AŞPA) yaz sessiyasında çıxışında deyib.

Bildirib ki, Azərbaycan 2001-ci ildə üzv olduqdan sonra demokratik keçid prosesində Avropa Şurasının dəstəyindən yararlanıb. Həmçinin Avropa Şurası da Azərbaycanın dəyərlərinin təbliğinə və təsirinin artırılmasına verdiyi töhfədən bəhrələnib. Bu, zaman baxımından məhdud olmayan və şübhəsiz ki, yarımçıq qalan qarşılıqlı faydalı əməkdaşlıqdır.

Azərbaycanın quruma verdiyi töhfələri, nümayəndə heyətinin təşkilatdakı layiqli yerinə tezliklə qayıtmasına ümidvarlığını vurğulayan Dominik Hasler qeyd edib: "Düşünürəm ki, bir-birimizə ehtiyacımız var. Ümid edirəm, Azərbaycan nümayəndə heyəti tezliklə Parlament Assambleyasında öz layiqli yerinə qayıdacaq ki, bizi birləşdirən dəyərlərin qorunması naminə əməkdaşlıq və dialoq davam etsin. Mən Avropa Şurasının 75 il ərzində gördüyü nəhəng işi davam etdirmək imkanı vermək üçün ən məqbul həll yollarını təşviq etməyə hazıram və Parlament Assambleyasına, Nazirlər Komitəsinə, Baş katibə üçtərəfli görüş zamanı gözəl əməkdaşlığa görə bir daha təşəkkür etmək istəyirəm". ■

# Brüssel görüşünün gizlinləri - ABŞ və Aİ-nin "inkar" taktikası

**(əvvəli 1-ci səhifədə)**

Ermənistan-Avropa İttifaqı-ABŞ üçlüyünün qaranlıq planlarının rəsmi Bakı tərəfindən ifşa olunması "soyuq duş" effekti yaratdı. Yayılan sənədlərlə bağlı təfərrüatlar ABŞ və Aİ-nin yeni cəbhə planını ortaya qoyur. Baxmayaraq ki, ABŞ dövlət katibi Antoni Blinken və Avropa Komissiyasının rəhbəri Ursula Fon der Lyayen Azərbaycan Prezidenti İlham Əliyevlə telefon danışıqlarında imtiyazların əsas hədəfi Rusiyadır. Ermənistanın bu kirli oyundan gözləntisi isə Azərbaycana qarşı üstünlük əldə etməkdir. Bunun üçün artıq Rusiyanın təsir mexanizmlərinin Ermənistanda ləğvi müzakirə mövzusudur. Məlumdur ki, kollektiv Qərb öz maraqlarını rəsmi Moskvanın nüfuzunun güclü olduğu Ermənistanda tam həyata keçirə bilməz. Bu səbəbdən həm orduda, həm də sosial-iqtisadi sahədə rəsmi İrəvan antirus siyasəti vanşizmlə birbaşa bağlıdır. 44 günlük Vətən müharibəsində məğlubiyyətin ardınca diplomatik sferada da geriyə otuzdurulan haylar məhz kollektiv Qərbin və rəsmi Vaşinqtonun əli ilə yenidən dirçəlməyə çalışırlar. Məhz bu çərçivədə Ermənistanın NATO ilə tərəfdaşlığının genişləndirilməsi nəzərdə tutulur. Fərdi Tərəfdaşlıq Proqramı (PARP), Əməliyyat İmkanları Konsepsiyası (OCC), Xarici Hərbi Maliyyələşdirmə proqramı (FMF) kimi mexa-

Brüssel görüşünün əks təsirlərindən söhbət açmayıblar, amma rəsmi Bakı pərdəarxası məqamların ifşasına nail olub.

Məlum faktların ortaya çıxmasından sonra ABŞ-ın canına sözün əsl mənasında "vəlvələ" düşüb. Məhz mövcud sənədlə bağlı ABŞ Dövlət Departamentinə göndərilən sorğuya verilən cavabın zəif olması, əsassız inkarlar və təkziblərin mövcudluğu bunu deməyə əsas verir: "Brüssel görüşündə diqqət yalnız ticarət tərəfdaşlıqlarını şaxələndirməyə və humanitar ehtiyaclarını həll etməyə çalışan Ermənistanın iqtisadi dayanıqlılığına, o cümlədən Ermənistanda demokratiya və qanunun aliliyi kimi sahələrdə davam edən islahatları dəstəkləməyə yönəlib". Yəni məkrli qüvvələr beynəlxalq ictimaiyyəti Ermənistana sadəcə 300-400 milyon ABŞ dolları yardım paketi verilməsinə inandırmağa çalışırlar. Xatırladaq ki, 5 aprel görüşünün gizlinləri məhz Ermənistan nümayəndə heyətinin ABŞ-a səfəri çərçivəsində də əsas müzakirə obyekti olub. Zəncirvari xarakter daşıyan hadisələrə nəzər yetirmək kifayət edir ki, yayılan sənədin reallığı tam təsdiq olunsun.

Əslində bununla rəsmi Bakının imperativlərinin nə qədər doğru və yerində olduğu bir daha aşkara çıxır. Anti-Azərbaycan dairələrinin ölkəmiz üçün "yersiz narahatlıq" adlandırdığı 5 aprel görüşünün əsl mahiyyəti təkcə Cənubi Qafqazı yox, bütün qonşu dövlətləri yaxından maraqlandırmasıdır. İlk növbədə haylara verilən



aparır. Xüsusilə hərbi sahədə NATO standartlarına uyğunlaşma Ermənistanın əsas hədəfidir ki, bu da KTMT-yə üzv olan bir dövlətdə olduqca böyük problemlər yarada bilər. Elə bu səbəbdən artıq Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında fəaliyyətini donduran haylar Qərbə "yaşıl işıq" yandırıblar. Hətta Rusiyanın 102 saylı hərbi bazasının Ermənistandan çıxarılması məsələsi ətrafında da intensivlik müşahidə olunur. Paşinyan rejimi həmin ərazidə keçirilən mitinqlərə arxalanır. İctimai qınağı əlində bayraq edərək 102-ci bazanın fəaliyyətini ölkədə dayandırmaq hədəflənir. Bununla yanaşı, 2020-2024-cü illərdə Ermənistana silah tədarükü ilə bağlı müqavilələrdə Rusiyanın payının 96 faizdən 10 faizə qədər azaldığı açıqlanmışdı.

Yeni havadarlarının haylar üçün vədlərinə paralel rəsmi İrəvandan da "fədakarlıq" gözlənilir ki, bu da şübhəsiz, Rusiyanın orbitindən tam çıxmaqdır. Buna görə Avropa İttifaqı hayların Rusiya Federasiyası FTX Sərhəd Xidmətinin qoşunlarının Zvartnots beynəlxalq hava limanından, Ermənistan-İran sərhədindən və bütün digər beynəlxalq sərhəd məntəqələrindən çıxarılması barədə qərarını dəstəkləyir. Rusiya sərhəd qoşunlarının strateji mövqelərdən uzaqlaşdırılması kollektiv Qərbin və ABŞ-ın Ermənistanda təsirinin genişlənməsinə şərait yaradacaq ki, bu da Rusiyaya qarşı yeni cəbhə planının reallaşması üçün önəmli addım hesab olunur.

Ermənistanın xüsusilə hərbi sahəni daha çox ön planda tutması renizmlərlə hayların "özünümüdafiə" qabiliyyəti artırılır. Hətta bu çərçivədə ABŞ Beynəlxalq Hərbi Təhsil və Təlim (IMET) proqramı vasitəsilə erməni hərbçiləri ABŞ hərbi akademiyalarında təlim keçəcəklər. Təlim taktiki və əməliyyat planlaşdırmasından tutmuş logistika və strateji idarəetmə kurslarına qədər geniş mövzuları əhatə edir. Bununla yanaşı, Aİ Ermənistandakı missiyasının (EUMA) uzunmüddətli mövcudluğunu təmin etmək və missiyaçıların sayının artırılması hesabına onun funksiyalarını genişləndirmək üçün əməkdaşlıq edəcək. Bütün bunlar Ermənistanın NATO ölkələrinin tamhüquqlu hərbi bazasına çevrilmək potensialına malik olmasına xidmət edir. Missiya heyətinin əhəmiyyətli dərəcədə artırılması və onun funksiyalarının genişləndirilməsi buna əyani misaldır. Ermənistana ayrılan "yardım" paketində texniki ekspert dəstəyi məsələsi də nəzərdə tutulur. Bu da Ermənistanın Xarici Kəşfiyyat Xidmətinin əməliyyat imkanlarının əhəmiyyətli dərəcədə genişləndirilməsinə gətirib çıxaracaq. Bir sözlə, Aİ-Ermənistan kiber dialoqu Ermənistanın regional maraqlarına birbaşa xidmət edəcək.

Rəsmi İrəvan Cənubi Qafqazda "odla oynayır". Qərbin pikant vədlərinə arxalanaraq, revanşizm xülyasına qapılan haylar məğlubiyyəti unutmaq istəmirlər. Baş verən proseslər ilk növbədə daxili xaosu oyandıra bilər. Rusiyanın təsir dairəsindən çıxıb Qərbin tasmasını taxmaq yaxın dövr ərzində təhlükəsiz görünsə də kollektiv Qərbin və rəsmi Vaşinqtonun vədlərinə sonacan sadiq qalması məsələsi mümkün görünmür. Ən azından beynəlxalq təcrübədə bunun ekvivalenti yoxdur. Digər tərəfdən qlobal güclərin qucağına sığınıb hegemoniya sərgiləyənlərin aqibəti isə bəllidir.

**Nurlan ABDALOV,**
**"Respublika".**

*Rus sülhməramlılarının vaxtından əvvəl Qarabağdan çıxarılması Rusiya və Azərbaycanın razılığına əsaslanır.*

# Ölkəmizə böyük etimad göstərilir

"...bütün bunlar Ermənistan üçün dərs olmalıdır. Biz bu dərsi öyrədirik və ümid edirik ki, nəhayət, onlar bunu anlayacaqlar, boyunlarını büküb öz daxili işləri ilə məşğul olacaqlar, bizim torpağımıza göz dikməyəcəklər, Qarabağa göz dikməyəcəklər. Qarabağ bizim torpağımızdır. Rus sülhməramlılar orada müvəqqəti yerləşiblər, 2020-ci ilin 10 noyabr Bəyanatında onların müddəti göstərilir və əgər kiməsə bel bağlayırlarsa, yenə də faciə ilə üzləşəcəklər". Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev 2022-ci il noyabrın 8-də Şuşada bu sözləri demişdi. Vətən müharibəsində ölkəmizin qələbəsinə kölgə salmaq istəyən pozucu qüvvələr Qarabağda sülhməramlıların mövcudluğunu qlobal problem kimi önə çıxarmağa çalışırdılar. Lakin elə həmin dairələr layiqli cavablarını İkinci Qarabağ müharibəsi dövründə almışdılar. Ölkə başçısı İlham Əliyev 2020-ci il oktyabrın 9-da xalqa müraciətində "nəyi, necə, nə vaxt etmək lazımdır, bunu mən bilirəm" ifadəsi ilə təxribatçı mərkəzlə-

qalmış hazırkı müddəanın tətbiqinə xitam verilməsi niyyəti ilə bağlı tərəflərdən hər hansı biri çıxış etməzsə, müddət avtomatik olaraq növbəti 5 ilə uzadılır". Yəni bəzi qüvvələrin iddialarının əksinə olaraq, sülhməramlıların qəti vaxtı 5 il qeyd edilməyib. Bu müddət uzana və ya əksinə də ola bilərdi. Lakin Azərbaycan ərazilərində fəaliyyət göstərən Rusiya kontingentinin ötən ilin sentyabrında antiterror tədbirlərinin uğurla başa çatmasının ardınca fəaliyyəti kifayət qədər məhdudlaşdı. Xatırladaq ki, sülhməramlıların Qarabağa yerləşdirilməsinin əsas məqsədi münaqişə tərəfləri arasında atəşkəs rejiminə nəzarət etməkdən ibarət idi. Antiterror tədbirləri nəticəsində digər münaqişə tərəfi olan erməni silahlıları bir gün ərzində ikinci kapitulyasiya aktının imzalanması ilə Azərbaycan ərazilərindən çıxarıldılar. Belə olan halda kontingent üçün həyata keçirəcək funksional vəzifə qalmadı.

Əlavə olaraq, Rusiyanın Ukraynada döyüş əməliyyatları apardığını nə-

Abxaziya və Cənubi Osetiyadan sülhməramlı kontingentin çıxarılması barədə təzyiqlər göstərən ABŞ, 2022-ci ilin yanvarında Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) Qazaxıstandan çıxarılmasını alqışladığını qeyd etmişdi. Bu gün də eyni addımı atmalı olan Ağ Ev nədənsə əks mövqe ortaya qoyur. Qərb bütün dövrlərdə Azərbaycanın tam olaraq müstəqil və suveren olmasını həzm edə bilməyib. Buna digər misal isə ötən il keçirilən antiterror tədbirlərindən 2 gün əvvəl, sentyabrın 17-də Türkiyənin İstanbul şəhərində Qarabağla bağlı gizli ABŞ, Aİ və Rusiya görüşüdür. ABŞ və Qərb Rusiya ilə Ukrayna müharibəsinin başlanmasından sonra ilk təmasında dəridən-qabıqdan çıxaraq bütöv Qarabağda Azərbaycan bayrağının dalğalanmasının qarşısını hər vəchlə almağa çalışırdı. Hətta Qərb və Birləşmiş Ştatlar öz sülhməramlılarının bölgəyə BMT mandatı altında daxil olmasını və ruslarla birlikdə ermənilərlə azərbaycanlılar arasında durmalarını Kremlə təklif edərək siyasi

Qarabağda yaşayan erməni sakinlərin təhlükəsiz şəraitdə reinteqrasiya prosesinə zəmanət verdi. Bu da öz növbəsində, ölkəmizə qarşı digər dövlətlər tərəfindən inam və etibar hissini daha da gücləndirdi. Beləliklə, ötən ilin sentyabrından sonra rus sülhməramlılarının Qarabağda mövcudluğuna heç bir ehtiyac qalmamışdı və qarşı tərəf də həmin ordunun daha səmərəli istifadə oluna biləcəyini yəqin etdiyi üçün yekunda belə bir razılıq əldə olundu. Sözsüz ki, bu ölkəmizin növbəti siyasi uğurudur.

**Tacir SADIQOV,**
**"Respublika".**





rin yersiz əndişəsinin qarşısını almışdı. Məhz kontingentin 10 noyabr sazişində 2025-ci ilə qədər müvəqqəti olaraq yerləşdirilməsi maddəsini də cənab İlham Əliyev israr etmişdi. Bu da öz növbəsində ölkə başçımızın qətiyyətli siyasətinin nəticəsidir. Aprelin 17-də Rusiya və Azərbaycanın ali dairələrinin razılığına əsasən rus sülhməramlılarının vaxtından əvvəl Qarabağdan çıxarılmağa başlaması iki ölkənin bir-birinə olan etimadının təcəssümü kimi qiymətləndirilə bilər.

Prezidentin köməkçisi - Azərbaycan Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Rusiya sülhməramlılarının Azərbaycan ərazisindən vaxtından əvvəl çıxarılması barədə hər iki ölkənin ali rəhbərliyi tərəfindən qərar qəbul edildiyini və prosesə başlanıldığını bildirib. Bildiyiniz kimi, Rusiya sülhməramlı kontingentinin müvəqqəti olaraq Azərbaycanda yerləşdirilməsi müddəti imzalanan 10 noyabr bəyanatında konkret olaraq göstərilib - 10 noyabr 2025. Üçtərəfli Bəyanatın 4-cü bəndində bu fikirlər yer alıb: "Rusiya Federasiyasının sülhməramlı kontingenti erməni silahlı qüvvələrinin çıxarılması ilə paralel şəkildə yerləşdirilir. Rusiya Federasiyasının sülhməramlı kontingentinin qalma müddəti 5 ildir və müddətin bitməsinə 6 ay

zərə alsaq, Qarabağdakı kontingentin çıxarılaraq sözügedən ərazilərdə boş mövqelərin doldurulması fikri heç də təəccüblü görünmür. Rəsmi Kreml hazırda müharibə şəraitindədir və Azərbaycanda da zərurət olmayan qoşunu saxlamaq əslində sağlam məntiqə xidmət etmir. Digər tərəfdən, Rusiya hökuməti də yəqin nəzərə alıb ki, Qarabağda işsiz-gücsüz oturub maaş alan ordunu digər istiqamətlərə yönəltmək olar. Məsələn, bir çox Afrika ölkələrində Rusiya qüvvələri və təlimçiləri var. Məlum olduğu kimi, Kreml Afrika ölkələrində mütəmadi olaraq sammitlər təşkil edir, ölkələrin Afrika müstəmləkəçiliyinə qarşı mübarizəsinə böyük dəstək göstərir.

Qərb isə sülhməramlı kontingentin Qarabağdan çıxarılmağa başlanılması xəbərini yenə öz maraqlarına uyğun şərh edib. Belə ki, ABŞ Dövlət Departamentinin mətbuat katibinin müavini Vedant Patel Rusiya sülhməramlı kontingentinin "daha dinc və sabit Cənubi Qafqaz regionuna töhfə verdiyini göstərən heç nə görmədiklərini" vurğulayıb. Birləşmiş Ştatların belə bir müsbət məsələyə neqativ tərzdə fikir bildirməsi siyasi riyakarlığın növbəti göstəricisidir. Qərb blokunun qərəzli dairələri Cənubi Qafqazda sülhün əldə olunmasının ən böyük əleyhdarları qismində çıxış edirlər. Daha öncə rəsmi Moskvaya dəfələrlə Dnestryanı,

acizlik nümayiş etdirmişdilər. Yəni Rusiyanın ən böyük rəqibi olan rəsmi Vaşinqton Kremlə Azərbaycan əleyhinə əməkdaşlıq təklif etmişdi.

Yekunda rus sülhməramlı kontingentin birmənalı olaraq fəaliyyətini dörd ilə yaxın bir müddətdə eyni şəkildə qiymətləndirmək olmaz. Zaman-zaman ölkəmiz tərəfindən bəzi narahatlıqlar oldu. Lakin antiterror tədbirlərindən sonra kontingent Qarabağda yaşayan mülki erməni əhalinin ümumi əraziyə çıxarılması, onların yola salınması məsələsində kifayət qədər müsbət fəaliyyət göstərdi. Hər bir halda onlar Azərbaycanda qonaq idi. Qonağın da burada qalma müddəti məlum idi. Kontingentin Qarabağı texnika ilə birgə tərk etməsi xəbərinin ardından ötən gün Türkiyə Milli Müdafiə Nazirliyi informasiya yayaraq Ağdamda yerləşən Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinin öz işini yekunlaşdırdığını bildirdi. Bu isə Azərbaycana olan etimadın bilavasitə göstəricisidir. Ölkəmiz bölgədə aktor rola malikdir və burada yerləşən nəhəng qonşu dövlətlər əməkdaşlığı genişləndirməkdə maraqlıdır. Çünki Azərbaycan Cənubi Qafqazda sülhü beynəlxalq hüququn norma və prinsiplərinə uyğun təmin etdi, antiterror tədbirlərindən sonra

# 30 il regiona turist səfərləri etməklə kifayətlənən təşkilata güvən yoxdur

**(əvvəli 1-ci səhifədə)**

Bununla belə, bir məsələyə xüsusi diqqət çəkmək lazımdır. Belə ki, bir müddətdir Azərbaycanla Ermənistan arasındakı sülh danışıqlarında Brüssel, Moskva və Vaşinqton platformalarından sonra ATƏT formatı da gündəmdədir. Qurumun əvvəlki sədri Buyar Osmani Şimali Makedoniyanın Skopye şəhərində keçirilən iclasda Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının Bakı və İrəvan arasında sülh müqaviləsini dəstəklədiyini bildirmişdi. Hətta vurğulamışdı ki, alyans konstruktiv dialoq üçün platforma da təklif edir. Amma bu gedişlər boşdur. Çünki vaxtilə ATƏT Ermənistanın Azərbaycana silahlı təcavüzünün aradan qaldırılması ilə bağlı üzərinə öhdəlik götürən yeganə institut idi. Bununla belə, o, illərlə İrəvanın genişmiqyaslı qanunsuz fəaliyyətlərinin aradan qaldırılmasında qeyri-effektiv oldu. Hər dəfə bağlı qapılar arxasında Azərbaycanın narahatlıqları dilə gətirilsə də, ictimai bəyanatlarda selektiv yanaşmaya üstünlük verildi. Üstəlik, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı ölkəmizin legitim çağırışlarına məhəl qoymadı. Bu isə Paşinyan Administrasiyasını daha da cəsarətləndirdi. Beləliklə, ATƏT münaqişənin həllində rol oynamaq şansını birdəfəlik itirdi. Azərbaycan 30 ilə yaxın davam edən münaqişəni hərbi-siyasi yolla həll etdi, ATƏT-in keçmiş Minsk qrupunun həmsədrlərinin mandatının əsasını təşkil edən BMT Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirdi. Bu müddət ərzində bölgəyə turist səfərləri etməklə kifayətlənən qurumun bundan sonra vasitəçilik missiyasını yerinə yetirməsi mümkün deyil.




Bu məsələ 14-16 mart tarixlərində keçirilən "Parçalanmış dünyanın bərpası" mövzusuna həsr olunan XI Qlobal Bakı Forumunda da gündəmə gəldi. Türkiyənin xarici işlər naziri Hakan Fidan tədbirdəki çıxışı zamanı bildirdi ki, Cənubi Qafqazda Qarabağ problemi ilə bağlı ATƏT-in Minsk qrupu danışıqlara cəlb olunmuşdu. Amma təşkilat münaqişəni həll etmək əvəzinə, danışıqları uzatmağa çalışırdı. Beləliklə, 44 günlük müharibədə və 2023-cü ildə antiterror tədbirləri zamanı Azərbaycan ərazi bütövlüyünü təmin etdi. Qardaş ölkənin baş diplomatının sözügedən alyansın fəaliyyəti ilə bağlı səsləndirdiyi fikirlər reallığa tam uyğundur və gündəmlə səsləşir. Çünki Qarabağ münaqişəsi artıq həll olunub, Azərbaycan öz suverenliyini və ərazi bütövlüyünü tam şəkildə təmin edib. İrəvanla Bakı arasındakı normallaşma prosesi isə ikitərəfli xarakter daşıyır. Hətta indiki məqamda deyə bilərik ki, ATƏT-in Minsk qrupu, Yüksək Səviyyəli Planlaşdırma Komitəsi kimi strukturların hələ də qalması sülh prosesinin inkişafını ləngidir. Bu səbəbdən də keçmişin qalıqları olan bir sıra mexanizmlər rəsmi qaydada ləğv edilməlidir.

Bütün bunların fonunda Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının fəaliyyətdə olan sədri, Maltanın xarici işlər naziri Yan Borqun ölkəmizə səfəri qurumun sülh prosesinə cəlbi məsələsində heç nəyi dəyişməyəcək. Azərbaycan hər zaman qonaqpərvərliyi ilə tanınıb. Odur ki, Borqun da ən yaxşı şəkildə qarşılanıb yola salınacağı istisna deyil. Amma 30 illik fəaliyyətsizliyindən dolayı ATƏT bundan sonra Cənubi Qafqazda baş verənlərə təsir mexanizmi olan qurum rolunu oynaya bilməyəcək.

**Jalə QASIMZADƏ,**
**"Respublika".**

RƏYLƏR, MÜLAHİZƏLƏR

# Azərbaycanın növbəti uğuru

**Bəşəriyyət İkinci Dünya müharibəsindən sonra ötən 80 ilə yaxın bir müddət ərzində ən həssas dönəmini yaşayır. 2008-ci ildən başlayan maliyyə-iqtisadi böhran bir neçə dalğa ilə davam etdi. İndi isə çox ciddi hərbi-siyasi böhran dünyanı öz cənginə alır.**



**Musa URUD,**
**Milli Məclisin deputatı.**

Xüsusilə iki slavyan dövləti arasında müharibənin başlanması və Amerika Birləşmiş Ştatlarının "öndərliyi" ilə Qərb dövlətlərinin Rusiyaya qarşı birləşməsi, NATO-nun Şimal qonşumuzun sərhədlərinə yaxınlaşması heç də yaxşı nəsə vəd etmir. Üstəgəl, Yaxın Şərqdə vəziyyətin daha da gərginləşməsi, İsrail-Fələstin münasibətlərinin çox ciddi müharibəyə çevrilməsi, İranın dəstəklədiyi terrorçu qrupların aktivləşməsi və İran-İsrail arasında münasibətlərin kəskinləşməsi ciddi narahatlıq yaradır.

Azərbaycanın öz torpaqlarını azad etməsindən sonrakı dövrdə Ermənistanın sülh müqaviləsini müxtəlif bəhanələrlə uzatması, verdiyi vədlərdən qaçması, xüsusilə Fransanın "yuyulmamış qaşıq" kimi özünü ortaya atması, bölgədə İranın çox sürüşkən bir mövqe tutması və Rusiyanın mövqelərinin zəifləməsi əlbəttə, bölgə dövlətlərinin, xüsusilə Cənubi Qafqazda birliyin təmin edilməsini zəruri edir. Heç şübhəsiz ki, Cənubi Qafqazda lider dövlət kimi Azərbaycan və Türkiyə çıxış edir. Azərbaycan və Türkiyənin irəli sürdüyü təkliflər əsasında region dövlətlərinin birləşməsi, birgə siyasət yürütməsi, bəyanatlar verməsi bölgəmizi gələcəkdə daha ciddi qarşıdurmalardan, müharibələrdən və fəlakətlərdən qoruya bilər. Müharibədən sonrakı dövrdə Azərbaycan və Türkiyə arasındakı münasibətlərin daha yüksək səviyyəyə qalxması fonunda təəssüflər olsun ki, digər bölgə dövlətləri belə bir münasibət sərgiləmədilər. 2021-ci il iyun ayının 15-də imzalanan Şuşa Bəyannaməsindən sonra gərək ki, digər dövlətlər də belə ikitərəfli münasibətlərin yüksək səviyyəyə qaldırılması üçün təşəbbüslər göstərərdilər. Xüsusilə Rusiya və İran. Baxmayaraq ki, Rusiya ilə Azərbaycan 2022-ci ilin fevralında belə bir müqaviləni imzalayıb. Amma İranın və Gürcüstanın bu məsələdə mövqelərinin sabit olmaması, Ermənistanın isə tamamilə özünü Fransanın və ABŞ-ın ağuşuna atması bölgə dövlətlərinin birliyinə əngəl törədir. Bakıda keçirilən Qələbə paradında Rəcəb Tayyib Ərdoğanın irəli sürdüyü "3+3" formatında əməkdaşlığın genişlənməsi ideyası çox təəssüf olsun ki, xüsusilə İran və Gürcüstan tərəfindən dəstəklənmədi. Ermənistan isə ümumiyyətlə sülh müqaviləsini əngəlləyən addımlar atmağa başladı və təcavüzkar siyasətini davam etdirdi.

Bu gün bölgə uğrunda imperialist qüvvələrin savaşı artıq faktdır. Amerika Birləşmiş Ştatları, Fransa və Almaniya, onların təhriki ilə isə Avropa İttifaqı Rusiyanın buradan sıxışdırılıb çıxarılması və bölgəyə özlərinin nüfuz etməsi uğrunda açıq-aydın savaşa giriblər. Bu savaşda da həmişə olduğu kimi, Ermənistan maşa rolunu oynayır. Vaxtilə Ermənistan çar Rusiyası tərəfindən Osmanlı Türkiyəsi və Qacarlar İranı kimi böyük imperiyaya qarşı mübarizəsində istifadə üçün Qafqaza gətirildi. Türkmənçay və Ədirnə müqavilələrindən sonra isə ilk dəfə erməni vilayəti yaradıldı. Sovet hökuməti də Ermənistan Respublikasını yaradıb. Azərbaycanın ərazilərində belə bir dövlət qurmaqla vaxtaşırı Azərbaycan və Türkiyəyə qarşı istifadə etmişdir. Bu gün isə demək olar ki, saatın əqrəbləri artıq geriyə işləməyə başlayıb. Rusiyaya qarşı Ermənistan Fransanın əlində maşa olub. Əlbəttə, bütün bunlar açıq şəkildə deyilməlidir. Xüsusilə hesab edirəm ki, İranın mövqeləri açıq olmalıdır. Çünki bu təhriklərin, bu gərginliklərin yaranması heç də İranın başının üstündən buludları dağıtmayacaq. Əslində, buludların daha da qatılaşmasına, dolu və yağış deyil, bombaların yağmasına gətirib çıxaracaqdır. Və İran da bunu başa düşməlidir. Əgər İran bir vaxtlar "Zəngəzur dəhlizi mənim qırmızı xəttimdir", - deyib haray çəkirdisə, bu gün gərək ki, İrana qarşı həmişə sanksiyalar mövqeyində dayanmış qüvvələrin Ermənistana gəlib yerləşməsinə öz etirazını bildirsin. Bölgəyə başqa bir dövlətin hərbi kontingenti hər hansı sifətlə gəlirsə-gəlsin, bu bölgəyə heç də sülh və əmin-amanlıq gətirmir.

Bu fonda Azərbaycanın uğurlarını xüsusilə qeyd etməliyik. Rusiya sülhməramlılarının zamanından əvvəl bölgədən çıxarılmasını Azərbaycanın növbəti böyük diplomatik və siyasi uğuru kimi qiymətləndirməliyik. Əlbəttə, ötən il sentyabrın 19-20-də keçirilən antiterror əməliyyatından sonra artıq Rusiya sülhməramlılarının Qarabağda görəsi bir işi qalmamışdı. Onların vaxtından əvvəl gedişi də artıq demək olar ki, həll olunmuş bir məsələ idi. Amma zamanında "nəyi, necə, nə vaxt etmək lazımdır, bunu mən bilirəm" - söyləyən cənab Prezident məqamı gələndə də bu addımı atdı. Artıq Rusiya sülhməramlılarının bölgədən getməsi prosesi başlayıb. İndi bunun fonunda heç şübhəsiz ki, Ermənistan tərəfi də lazımi anlayışlı addımlar atmalı, sülh müqaviləsini bağlamaq üçün ciddi işlər görməlidir. Azərbaycanın verdiyi təkliflər üzərində monopoliyasına son qoymalıdır. Bu təkliflər əsasında da sülh müqaviləsi bağlanmalıdır ki, bölgədə gərginliyin azaldılması və əməkdaşlığın başlanması istiqamətində lazımi işlər görülsün. Fransa və Amerika da dərk etməlidir ki, imperialist siyasətin Qafqazda yeri yoxdur. Bölgədə artıq güclü dövlətlər formalaşıb. Hesab edirəm ki, Ermənistan əgər bir dövlət kimi mövcudluğunu davam etdirmək istəyirsə, Azərbaycan və Türkiyə ilə inteqrasiyaya getməlidir. Əlbəttə, bölgə dövlətlərinin birliyi lazımdır, amma cənab Prezident Milli Məclisdə keçirilən inaqurasiya mərasimi zamanı bütün dünyaya açıq şəkildə bəyan etdi ki, bizim ailəmiz türk dünyasıdır, türk birliyidir. Hesab edirəm ki, biz türk birliyinin daha çox bölgəyə nüfuz, inteqrasiya etməsi və öz gücünü göstərməsi üçün təşəbbüsləri artırmalıyıq. ■




# Azərbaycan yaşıl dünya uğrunda öncüllərdəndir

*Dünyada get-gedə yaşıl enerjiyə maraq artır. Qlobal iqlim krizisi kontekstində Azərbaycanın COP29-a ev sahibliyi etməsi xüsusi əhəmiyyət kəsb edir. Azərbaycanın külək, günəş və su elektrik enerjisi kimi bərpaolunan enerji mənbələrinə dair öhdəliklərini, "yaşıl enerji" infrastruktur layihələrini uğurla yerinə yetirməsi ölkəmizin iqlim dəyişmələri probleminin həllinə yönəlmiş qətiyyətli fəaliyyətinin sübutudur.*

Bu gün Yer kürəsində iqlim dəyişmələri bütün sahələrə mənfi təsir göstərir. Hətta bir çox bölgədə təbii fəlakətlər baş verir. Rusiya, Qazaxıstan, Birləşmiş Ərəb Əmirlikləri, Pakistan bu gün daşqınlarla mübarizə aparır. Göründüyü kimi, sel, yağış, daşqınlar, yaxud həddindən artıq güclü külək getdikcə artır. Azərbaycan da iqlim dəyişməsi ilə bağlı problem yaşayan ölkələrdəndir. İqlim problemləri ilə mübarizə istiqamətində dövlət səviyyəsində işlər görülür. Ölkəmizdə bu gün yaşıl iqtisadiyyatı, yaşıl energetikanı əhatə edən böyük layihələr həyata keçirilir. Prezident İlham Əliyev tərəfindən 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi tarixi əhəmiyyət kəsb edir. Bu, Azərbaycanın ekoloji problemlərin həllində fəal mövqeyini əks etdirir. Həmçinin Azərbaycanın yaşıl enerjiyə keçid istiqamətində uzunmüddətli və məqsədyönlü siyasəti mühüm əhəmiyyət daşıyır.

Ölkəmiz Paris Sazişi çərçivəsində müasir texnologiyalara əlçatanlığın təmin edilməsi və Konvensiyanın müvafiq mexanizmlərinin, həmçinin maliyyə institutlarının dəstəyi olacağı təqdirdə 2050-ci ilə emissiyaların səviyyəsində 40 faiz azaldılma hədəfini bəyan edib. Statistik məlumatlar da göstərir ki, ölkəmizdə sənaye zonalarının yaradılması, sənaye parkları, məhəllələri və aqroparklar sahəsində idarəetmənin təkmilləşdirilməsi, yeni sənaye müəssisələrinin yaradılması zamanı yüksək ekoloji tələblərə cavab verən texnologiyaların istifadəsi və müəssisələrin modernləşdirilməsi nəticəsində sənaye sektorundan istixana effektili qaz tullantılarının atılması nisbətən azalıb. Hidrometeroloji məlumatların avtomatlaşdırılması, elektron məlumat bazasının yaradılması nəticəsində ölkədə təhlükəli hidrometeoroloji hadisələrə qarşı dayanıqlılığı təmin etmək məqsədilə erkən xəbərdarlıq sistemi təkmilləşdirilib. Hidrometeoroloji proseslərin və onlarla əlaqədar olan atmosfer hadisələrinin real vaxt rejimində aşkarlanması məqsədilə 2 regionda Dopler hava radarları qurularaq istifadəyə verilib və yeni nəsil avtomat hidroloji, meteoroloji və Xəzər dənizində avtomat dəniz stansiyaları quraşdırılıb.

Azərbaycan yaşıl enerji təşəbbüslərinin gerçəkləşməsində beynəlxalq təşkilatlar, hökumət və sənaye tərəfdaşları ilə birlikdə çalışır, fikir mübadiləsi aparır. Hazırda Fransanın "TotalEnergies" şirkəti ilə 250 MVt gücündə, "Nobel Energy" şirkəti ilə isə 400 MVt gücündə günəş elektrik stansiyalarının inşası və istehsal ediləcək elektrik enerjisinin Türkiyəyə ixracı üzrə əməkdaşlıq edilir. Həmçinin 2020-ci ildən Birləşmiş Ərəb Əmirliklərinin "Masdar", Səudiyyə Ərəbistanının "ACWA Power", Böyük Britaniyanın BP, Avstraliyanın "Fortescue Future Industries", Çinin "China Gezhouba Group Overseas Investment", "Total Energies", ABŞ-ın "Nobel Energy", Çex Respublikasının "A-Z Czech Engineering" və Türkiyənin "Baltech" şirkətləri ilə bərpaolunan enerji layihələri üzrə ortaq çalışmalar davam edir. Bütün bunlar Azərbaycanın yaşıl enerjiyə keçiddə əldə etdiyi nailiyyətlərin göstəricisidir.



Dövlət başçısı İlham Əliyevin qətiyyətli siyasətinin nəticəsidir ki, bu gün Azərbaycan yüksək sosial-iqtisadi inkişafa doğru addımlayır. Uğurlu xarici siyasət sayəsində ictimai-siyasi sabitlik möhkəmlənir, ölkəmizin beynəlxalq səviyyədə nüfuzu artır. Bu da ölkəmizin COP29 kimi qlobal xarakterli mötəbər tədbiri yüksək səviyyədə təşkil etmək potensialına malik olduğunu bir daha sübut edir.

Dünya iqlim dəyişmələrinin təsirləri ilə mübarizə apararkən Azərbaycan COP29-a ev sahibliyi etməklə humanitar tədbirlərdə öncül yer alır. Bu yaxınlarda COP29-un baş qərargahında təşkil olunan mətbuat konfransında ölkəmizin həyata keçirdiyi işlər müzakirə edilib. Azərbaycanın rolu sadəcə ev sahibliyi etməkdən kənara çıxır və ölkəmiz konfrans zamanı danışıqlara fəal rəhbərlik edəcək. Bu o deməkdir ki, noyabrda Bakı dünyanın diqqət mərkəzinə çevriləcək.

Azərbaycanın daha davamlı gələcəyə doğru addımları onun "yaşıl enerji"dən istifadə öhdəliyinə əsaslanır. Ölkəmiz artıq qlobal ekoloji böhrana qarşı mübarizəyə başlayıb. Qarşıdan gələn COP29 Azərbaycan üçün öz nailiyyətlərini nümayiş etdirmək və ətraf mühitin mühafizəsi üzrə öhdəliklərini yerinə yetirmək üçün platforma rolunu oynayır. Beynəlxalq birliyin etibarlı və məsuliyyətli üzvü kimi Azərbaycanın "yaşıl enerji"nin və davamlılığın təşviqində göstərdiyi səylər təqdirəlayiqdir. Ölkəmizin COP29-a verdiyi töhfələr nəinki konfransın uğurunu artıracaq, həm də digər ölkələr üçün nümunə olacaq.

**Nurcan SÜLEYMANOVA,**
**"Respublika".**

*COP - İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası insanın iqlim mühitinə təhlükəli müdaxiləsinin qarşısını almaq məqsədilə 1992-ci il iyununda Rio-de-Janeyro şəhərində keçirilmiş Yer Sammitində imzalanmış sazişdir. COP (Conference of Parties) abreviaturunun ingilis dilindən tərcüməsi Tərəflər Konfransı deməkdir. Tərəflərin Konfransı İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının icrasına nəzarət edən ali qərarverici orqandır. Bu Konvensiyaya üzv olan 190-dan çox ölkə var.*

*Ötən il dekabrın 11-də Dubayda COP28-in plenar iclasında COP29-un bu il Azərbaycanda keçirilməsi haqqında qərar qəbul olunub.*

COP29
BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası




# Azərbaycana təhdid tam əsassızdır

*Fransa Azərbaycandakı səfiri Ann Buayonu geri çağırıb. Bunun ardınca rəsmi Paris əsassız şəkildə Bakını ikitərəfli münasibətlərə xələl gətirməkdə ittiham edib. Bu isə Yelisey sarayının Azərbaycana qarşı ikili standartlar və qərəz dolu siyasət yürütdüyünü bir daha təsdiqləyir. Fransanın belə bir qərar verməsinin arxasında Azərbaycana qarşı məkrli siyasi xəttin dayandığı aydın görünür. Bu münasibət isə ölkəmizin İkinci Qarabağ müharibəsində qazandığı qələbədən sonra xeyli kəskinləşib.*

İlk növbədə onu qeyd etmək lazımdır ki, səfirin geri çağırılması üçün müəyyən əsaslar olmalıdır. Hər iki dövlət arasında soyuq küləklər əssə də, Fransa səfirliyinə qarşı Azərbaycanda hər hansısa bir xoşagəlməz hadisə baş verməyib. Lakin ermənipərəst mövqeyi və anti-Azərbaycan yanaşması ilə hər zaman fərqlənən Makronun rəhbərlik etdiyi Fransa ölkəmizin uğurlarını həzm edə bilmədiyindən bu cür radikal qərarlar verir. Ona görə də indiki dövrdə Azərbaycan və Fransa münasibətləri tarixinin ən pis dövrünü yaşayır. Bunun da əsas səbəbi Makronun Cənubi Qafqaz siyasətinin əsasında ifrat erməni sevgisinin dayanmasıdır. Zaman-zaman Azərbaycan-Fransa əlaqələri normal səviyyədə olub. Amma Makronun bugünkü Fransası erməni diaspor və lobbi təşkilatlarının oyuncağına çevrilmiş bir ölkə kimi açıq-aşkar yanlış siyasətlə hərəkət edir. Rəsmi Parisin Bakıdakı səfirini geri çağırmasına Azərbaycan Xarici İşlər Nazirliyi də mövqe bildirib. Qeyd olunub ki, Fransa tərəfinin Azərbaycanı birtərəfli hərəkətlərdə günahlandırmasına baxmayaraq, rəsmi Bakının Parisə qarşı addımları və verdiyi rəsmi bəyanatlar yalnız bu ölkənin destruktiv fəaliyyətinə cavab xarakterli olub. Azərbaycan tərəfi öz milli maraqlarının qorunması istiqamətində müvafiq tədbirlərini davam etdirəcək və daim Fransa tərəfinə çağırışlar edib ki, Azərbaycana qarşı öz kampaniyasından əl çəksə, dialoq üçün qapılar açıqdır. Nazirlikdən o da bildirilib ki, Fransanın BMT Təhlükəsizlik Şurasında, Avropa İttifaqı, Frankofoniya kimi təşkilatlarda və digər beynəlxalq platformalarda dəfələrlə Azərbaycan əleyhinə hazırlanan sənəd layihələrinin təşəbbüskarı olması bu ölkənin bitərəf vasitəçi iddialarının tamamilə əsassız olduğunu sübut edir. Eyni zamanda qeyd edilib ki, Azərbaycanın COP29-a sədrliyini və ev sahibliyini hədəfə alan Fransa tərəfindən Azərbaycanı birtərəfli addımlarda təqsirləndirilməsi tam əsassızdır.

Son 3 il yarım ərzində Fransa Azərbaycanla münasibətləri pozmaq üçün bütün mümkün variantlardan istifadə edib. Ötən gün Fransanın ölkəmizdəki səfirinin Parisə çağırılması bir sıra məqamlara da aydınlıq gətirir. Bu addım konkret olaraq pisləşən münasibətləri daha da korlayır. Təbii ki, Fransa diplomatının geri çağırılmasını lazım bilibsə, Azərbaycan da eynilə buna cavab verə bilər. Lakin rəsmi Bakı bütün dialoqlara hər zaman hazır olduğunu bəyan edir.

Artıq son illər Fransanın Azərbaycana qarşı qərəzli mövqe sərgiləməsinin şahidi oluruq. Buna baxmayaraq, Fransanın "küskün" obraz yaratmaq cəhdi yalnız gülünc doğurur.

Yaxın tarixə nəzər salsaq, Yelisey sarayının əsl iç üzünü aydın şəkildə görə bilərik. Fransa parlamentinin qondarma "arsax"ı tanıması, BMT-də Azərbaycana qarşı qətnamələr qəbul etdirmək üçün cəhd göstərməsi, Avropa İttifaqında Azərbaycan əleyhinə kampaniya aparması, Avropa Parlamentinin Azərbaycanın xeyrinə olmayan qətnamələrin qəbulunda aktiv iştirak etməsi deyilənlərin əyani sübutudur. Makronizm bəlasına yoluxan Fransanın Laçın yolunda ekoaktivistlərin etiraz aksiyasını "blokada" adlandırması da növbəti qərəz idi. Bundan başqa, Ermənistanı silahlandıraraq revanşa hazırlamaq cəhdləri, Natəvanın heykəlinə qarşı törədilən vandallıq rəsmi Parisin hansı xislətə sahib olduğunun göstəricisidir.

**Musa BAĞIRLI,**
**"Respublika".**



# Separatizmin qalıqları və izləri silinir

**(əvvəli 1-ci səhifədə)**

Amma hər zaman olduğu kimi, düşmən bu məsələdə də destruktiv yanaşma nümayiş etdirdi. Üçtərəfli Bəyanatın tələblərinin kobud şəkildə pozulması, öhdəliklərin yerinə yetirilməməsi və bu kimi digər mənfi hallar bölgədə antiterror tədbirlərinin keçirilməsini zərurətə çevirdi. Ötən ilin sentyabrında Ermənistan silahlı qüvvələrinin kəşfiyyat-diversiya qrupları tərəfindən terror məqsədilə ordumuzun təminat yollarının minalanması nəticəsində iki mülki şəxs və dörd polis əməkdaşımızın şəhid olması Azərbaycanın səbir kasasını daşırdı. Rəsmi İrəvanın pozuculuq fəaliyyətinin qarşısının alınması, ölkəmizin suveren əraziləri daxilində - Qarabağ bölgəsində Ermənistan silahlı qüvvələrinin qanunsuz hərbi birləşmələrinə qarşı lokal xarakterli antiterror tədbirləri başlandı. Tədbirlər zamanı qanunsuz erməni silahlı birləşmələrinin ön xətt və dərinliklərdə olan mövqeləri, uzunmüddətli atəş nöqtələri, döyüş vasitələri məhv edildi. Xüsusi vurğulamaq lazımdır ki, rəsmi Bakının göstərişi ilə yalnız legitim hərbi obyektlər və infrastruktur hədəfə alındı.

Lokal antiterror tədbirləri zamanı Azərbaycanın müasir silahlara və yüksək hərbi imkanlara malik olmasına rəğmən, yüksək humanizm prinsiplərinə sadiqliyi bir daha öz təsdiqini tapdı. Mülki əhali və infrastruktur obyektlərinin yaxınlığında bilərəkdən yerləşdirilmiş legitim hərbi obyektlərə zərbələr endirilmədi. 24 saatdan az müddətdə Azərbaycan bütün istiqamətlər üzrə hərbi uğurlar qazandı. Nəticədə Ermənistan silahlı qüvvələrinin qanunsuz hərbi birləşmələri ağ bayraq qaldıraraq silahı yerə qoyub təslim oldular. Beləliklə, suverenliyimiz tam təmin olundu.

Müharibələr bitsə də onların fəsadları illər boyu qalmaqda davam edir. İkinci Qarabağ savaşından üç ildən çox vaxt keçməsinə baxmayaraq, müharibənin izləri hələ də silinməyib. Vaxtikən separatçıların terror yuvasına çevrilmiş Xankəndidə ard-arda silah-sursat tapılır. Keçirilən tədbirlərlə Xankəndi şəhəri ərazisindən 8 ədəd müxtəlif markalı avtomat silahı, 30 patron darağı, 3 alışdırıcı, 930 ədəd müxtəlif çaplı patron və digər sursatlar aşkar olunaraq götürülüb. Aprelin 15-də isə daha 27 ədəd müxtəlif markalı avtomat silahı, 1 pulemyot, 1 pulemyot-tapança, 4 tapança, 3 tüfəng, 14 qumbara, 1 qumbaraatan, 5 alışdırıcı, 3 mina başlığı, 2 mərmi, 15 pulemyot lenti, 74 patron darağı, 3130 ədəd müxtəlif çaplı patron, 2 rabitə vasitəsi və digər sursatlar aşkar edilib.

Xatırladaq ki, işğal dövründə separatçıların qanunsuz tikdikləri binaların sökülməsi də həyata keçirilir. Bir məqamı da qeyd edək ki, Qarabağda ermənilərin məhv etdiyi milli-mədəni irsimizdən fərqli olaraq, Xankəndidə sökülən binaların "mədəni irs"lə heç bir əlaqəsi yoxdur və Xankəndinin arxitekturasına uyğun olmayanlar aradan götürülür.

Xankəndi şəhərinin Baş planı hələ sovet dönəmində ümummilli lider Heydər Əliyev tərəfindən təsdiqlənmişdir. Ona görə də Xankəndidə aparılan tikinti işləri Azərbaycan hökuməti ilə razılaşdırılmalıydı. Bu baxımdan ölkəmizin razılığı olmadan şəhərin Baş planına və arxitekturasına uyğun olmayan hər bir tikintinin sökülməsi vacibdir. Sonda isə qeyd edək ki, həm aşkarlanan silah-sursatlar, həm də qanunsuz tikilən binaların sökülməsi Azərbaycanın separatizmin izlərinin silinməsi istiqamətində apardığı uğurlu işlərdən xəbər verir.

**Nəzrin ELDARQIZI,**
**"Respublika".**

RƏYLƏR, MÜLAHİZƏLƏR

# Sülh müqaviləsinin imzalanmasına əsas əngəl Fransadır

**Azərbaycandakı səfirini məsləhətləşmə üçün geri çağırması Fransa dövlətinin hüququ ola bilər, lakin bu ölkənin Xarici İşlər Nazirliyinin açıqlamasında Azərbaycanın münasibətlərə xələl gətirən birtərəfli addımlarda təqsirləndirilməsi yolverilməzdir.**



**Bəhruz MƏHƏRRƏMOV,**
**Milli Məclisin deputatı.**

Rəsmi Paris yeni anti-Azərbaycan kampaniyası başlayıb. Səfir Ann Buayonun Parisə qayıtdıqdan sonra birbaşa prezident Emmanuel Makron tərəfindən qəbul olunması da bu prosesə daha çox ictimai diqqət niyyəti güdür. Məlumdur ki, Azərbaycan Respublikası ümumbəşəri dəyərlərə sadiq olaraq dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamağı və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərməyi konstitusion niyyət kimi bəyan edib. Dövlətimiz başqa ölkələrlə münasibətlərini beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplər əsasında qurur. O cümlədən Fransa ilə son 33 ildə beynəlxalq hüququn dövlətlərin əməkdaşlığı prinsipi rəhbər tutulmaqla münasibətlərin inkişaf etdirilməsinə çalışmışıq. Hətta Azərbaycan uzun müddət əsas problemi olan Ermənistanla münaqişədə Fransanın 25 ilə yaxın vasitəçiliyinə etiraz etməmişdi.

Vətən müharibəsinə qədərki dövrdə Fransa formal da olsa mümkün qədər neytral görünməyə çalışır və sülh ritorikasına üstünlük verirdi. Lakin Azərbaycanın hərbi-siyasi qələbələrinin ardınca rəsmi Parisin siması faş oldu. Əvvəllər işğalın nəticələrini Bakıya qəbul etdirmək üçün sülh və qarşılıqlı etimaddan danışan, Azərbaycanı təcavüz və ərazi itkisiylə barışdırmaq üçün davamlı şəkildə o zamankı status-kvo ilə "sülh" təlqin edən Fransa 44 günlük savaşdan sonra beynəlxalq hüququn aliliyinin təmin edildiyi reallığı açıq formada qəbul etmək istəmir.

Fransa faktiki olaraq son 3 il yarım müddətdə Azərbaycanla Ermənistan arasında beynəlxalq hüququn ümumtanınmış prinsipləri əsasında sülh müqaviləsinin imzalanması qarşısında əsas əngəl kimi çıxış edir. Özünün xaotik addımları ilə Makron artıq regionda münaqişələrə rəsmi Parisin maraqlarının təmini kimi baxdığını gizlətmir, suverenlik və ərazi bütövlüyü əsasında əlaqələrin normallaşdırılması səylərini ciddi şəkildə sual altına qoyur, yenidən məğlub Ermənistanı qalib Azərbaycanla qarşıdurmaya təhrik etməklə erməniləri öz maraqlarının alətinə çevirməyə çalışır. Acınacaqlı haldır ki, Yelisey sarayı artıq bütün beynəlxalq standartları bir kənara buraxaraq dövlət və hökumət strukturlarını, media və üçüncü sektoru, o cümlədən fransız siyasi elitasını bu çirkin və beynəlxalq hüquqazidd məqsədlər naminə səfərbər edib. Məhz bunun nəticəsidir ki, Fransa Xarici İşlər Nazirliyi Azərbaycana qarşı bütün diplomatik etiketləri aşan, BMT Nizamnaməsində əksini tapan məqsəd və prinsiplərə zidd olan çoxsaylı əsassız ittiham və təhdidlərin əks olunduğu bəyanatlar yayımlayır. Həmçinin Makron rejiminin birbaşa direktivi ilə Fransa Parlamentində beynəlxalq hüquqa daban-dabana zidd olaraq, Azərbaycanın ərazi bütövlüyü və suverenliyini sual altına qoyan, separatizmi və terrorçuluğu dəstəkləyən qərar və qətnamələr qəbul edilir. Təəssüf doğuran haldır ki, rəsmi Paris bununla da kifayətlənməyərək artıq bir sıra beynəlxalq hüquq subyektlərini də özünün təhlükəli gedişləri üçün platformaya çevirir. BMT Təhlükəsizlik Şurasında, Avropa İttifaqı, Avropa Şurası Parlament Assambleyası, Frankofoniya kimi təşkilatlarda Parisin repressiv və qəbuledilməz anti-Azərbaycan mövqeyi hətta Fransanın özünə dost olan ölkələr tərəfindən belə təəccüblə qarşılanır.

Heç şübhəsiz ki, Avropa İttifaqı-Ermənistan-ABŞ müştərək konfransının keçirilməsi və Ermənistan üçün təhlükəsizlik zəmanətinə dair hərbi paktın imzalanmasının planlaşdırılması məsələsində də Fransa aktiv rol oynamışdı. İndi bütün bunların fonunda səfirini geri çağıran rəsmi Paris Azərbaycanı birtərəfli hərəkətlərdə təqsirləndirir, lakin yuxarıda sadaladıqlarımızın fonunda Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin açıqlamasında da ifadə olunduğu kimi, ölkəmizin Fransaya qarşı addımları və verdiyi rəsmi bəyanatlar yalnız bu ölkənin destruktiv fəaliyyətinə cavab xarakterli olub. Üstəlik, Fransanın hələ bir çox addımlarına münasibətdə ümumiyyətlə adekvat addımlar atılması məqsədəuyğun hesab edilməyib. Məsələn, Fransada dövlət səviyyəsində dəstəklənən və təşviq edilən Azərbaycanofob qruplar, o cümlədən erməni terror təşkilatları dəfələrlə elə Fransa hakimiyyət orqanlarının susqun razılığı ilə səfirliyimizə qarşı vandal hücumlar etmişlər. Yaxud Xurşidbanu Natəvanın büstünə qarşı törədilən vəhşilik, abidəyə zərər yetirilməsi, boya atılması hökumət tərəfindən dəstəklənən vandalizmin nəticəsidir.

İndi bütün bunların fonunda rəsmi Parisin Azərbaycanı ittiham edərək səfiri geri çağırması absurd və informasiya məkanında vəziyyətin gərginləşməsinə xidmət edən təhrikçi gedişdir. Xüsusən, bu diplomatik təxribatın hazırkı dövrdə törədilməsi təsadüf deyil. Fransa Azərbaycanın BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına sədrliyini və ev sahibliyini hədəf alan çağırışları fonunda bu addımı atmaqla məsələyə daha çox diqqət çəkmək, ölkəmizin əleyhinə koalisiya yaratmaq niyyətindədir. Yəni Fransa yalnız bəyanatları ilə yox, həm də davranışları ilə sübut edir ki, Cənubi Qafqazda sülh arzulamır və bölgəmizdə münaqişənin yenidən qızışdırılmasında israrlıdır.

Əslində baş verənlər bizi təəccübləndirmir, çünki andiçmə mərasimində möhtərəm Prezident də ifadə etmişdi ki, "bunlar bizdən əl çəkməyəcək". Hazırda yaşananlar da bir daha göstərir ki, Azərbaycan Prezidenti nə qədər haqlıdır. Lakin ölkə Prezidenti onu da dəfələrlə bəyan edib ki, biz istənilən üsulla öz milli maraq və mənafelərimizi qoruyacağıq. Bu mənada, Fransa başa düşməlidir ki, Azərbaycanı birtərəfli addımlarda təqsirləndirməklə, yaxud təhdid və təzyiq dili ilə danışmaqla maraqlarını təmin edəcək real bir nəticəyə nail ola bilməz, əksinə, özünün mövqelərini daha da zəifləndəcəkdir. ■



# Günün siyasi nəbzi



**Cənubi Qafqazda yerləşdikləri vaxtdan etibarən Azərbaycan torpaqlarına göz dikən ermənilər alçaq niyyətlərini həyata keçirmək üçün hər zaman fürsət axtarmışlar. Mənfur qonşularımız düşmənçilik siyasətini mərhələli şəkildə həyata keçirməklə xalqımıza qarşı soyqırımları, qətliamlar törətmiş, Qərbi Azərbaycanda yaşayan soydaşlarımızı amansız işgəncələr altında ata-baba torpaqlarından zorla deportasiya etmişlər. Ötən əsrin sonlarında isə tarixi yurd yerimiz olan qədim İrəvanda etnik təmizləmə siyasəti aparmış, azərbaycanlılar yaşayan kəndləri, qəsəbələri viran qoymuşlar.**

## Uzaqgörən, məqsədyönlü siyasətin nəticəsi



Ermənistanın 30 illik işğalçılıq siyasətinə, sərhədboyu ərazilərdə törətdiyi təxribatlara 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsində layiqli cavab verildi. Öz ərazilərində əks-hücum əməliyyatı həyata keçirən Azərbaycan ordusunun bölmələri cəmi 44 günə düşməni ram etdi. Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən döyüş əməliyyatlarında bir addım belə geri çəkilməyən Azərbaycan əsgəri ölkəmizin ərazi bütövlüyünü təmin etdi. Uzun illər erməni əsarətində qalan şəhər və kəndlərimiz işğaldan azad edildi, düşmən məğlubiyyətə məcbur edilərək kapitulyasiya aktı imzaladı. Azərbaycan Prezidenti İlham Əliyev, Rusiya Federasiyasının Prezidenti Vladimir Putin və Ermənistanın baş naziri Nikol Paşinyanın noyabrın 9-dan 10-na keçən gecə imzaladıqları üçtərəfli Bəyanata əsasən, Ağdam, Kəlbəcər və Laçın rayonları bir güllə atılmadan düşməndən geri alındı.

Həmin tarixdən etibarən hərbi əməliyyatlar dayandırıldı. Bəyanatın 3-cü bəndinə əsasən Rusiya Federasiyasının 1960 nəfər silahlı hərbi qulluqçusundan, 90 hərbi zirehli texnika, 380 ədəd avtomobil və xüsusi texnikadan ibarət sülhməramlı kontingenti Qarabağda keçmiş təmas xətti və Laçın dəhlizi boyu yerləşdirildi. Erməni silahlı qüvvələrinin çıxarılması ilə paralel olaraq rus sülhməramlı kontingentinin yerləşdirilməsində məqsəd münaqişə tərəflərinin razılaşmalara əməl etməsinə nəzarət olunması idi. Bəyanatın 4-cü bəndində Rusiya Federasiyasının sülhməramlı kontingentinin qalma müddətinin 5 il olduğu göstərilir və qeyd olunur ki, müddətin bitməsinə 6 ay qalmış hazırkı müddəanın tətbiqinə xitam verilməsi niyyəti ilə bağlı tərəflərdən hər hansı biri çıxış etməzsə, müddət avtomatik olaraq növbəti 5 ilə uzadılır. Lakin bu müddətin nəinki beş il uzadılmasına ehtiyac qalmadı, hətta sülhməramlıların vaxtından əvvəl Qarabağdan çıxarılmasına qərar verildi. Belə ki, artıq rus sülhməramlılarının Qarabağdan çıxarılması prosesinə başlanılıb. Bunu Prezidentin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev də təsdiq edib və bildirib ki, 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanata əsasən, Azərbaycan Respublikasının ərazisində müvəqqəti olaraq yerləşdirilmiş Rusiya Federasiyası sülhməramlılarının ölkəmizin ərazisindən vaxtından əvvəl çıxarılması barədə hər iki ölkənin ali rəhbərliyi tərəfindən qərar qəbul edilib. Artıq proses başlanılıb, Azərbaycan və Rusiya müdafiə nazirlikləri həmin qərarın icrası ilə bağlı müvafiq tədbirlər həyata keçirirlər.

Vətən müharibəsində ölkəmizin qalibiyyətini, qarşı tərəfin isə məğlubiyyətini ehtiva edən üçtərəfli Bəyanata əsasən sülhməramlıların Qarabağda yerləşdirilməsi Azərbaycanı narahat etmirdi. Çünki beynəlxalq hüquq normaları çərçivəsində siyasət yürüdən dövlətimiz 44 günlük müharibənin bitməsini, hərbi əməliyyatların dayandırılmasını əks etdirən 10 noyabr bəyanatının imzalandığı andan üzərinə götürdüyü bütün öhdəlikləri həyata keçirməyə başladı. Lakin heç bir vaxt verdiyi sözə əməl etməyən, öz çirkin əməllərindən əl çəkə bilməyən Ermənistanın siyasi rəhbərliyi imza atdığı üçtərəfli Bəyanatın müddəalarına əməl etməkdən boyun qaçırdı. Müharibədən üç ildən çox ötməsinə baxmayaraq, düşmən mütəmadi olaraq sərhədboyu ərazilərdə təxribatlar törədir, mənfur niyyətini həyata keçirməyə çalışırdı. Bu baxımdan, Qarabağ ərazisində sülhməramlıların yerləşdirilməsi düşünülmüş addım idi. Belə ki, "Qızılbulaq" qızıl və "Dəmirli" mis-molibden yataqlarındakı təbii sərvətlərimizin mənimsənilməsinə, faydalı qazıntı yataqlarının erməni separatçıları tərəfindən qanunsuz istismarına, ekoloji terrora son qoyulmasını tələb edən azərbaycanlı ekofəalların 138 gün fasiləsiz olaraq keçirdikləri dinc aksiyaları bütün dünya izləyirdi. Ötən il aprel ayının 23-də Qarabağ və ətraf rayonlarımızda qeyri-qanuni yerləşən xuntaçılara canlı qüvvə, silah-sursat, mina, eləcə də digər hərbi təyinatlı vasitələrin daşınmasının qarşısını almaq məqsədilə Azərbaycan Dövlət Sərhəd Xidmətinin bölmələri tərəfindən suveren ərazilərimizdə, Laçın-Xankəndi yolunun başlanğıcında sərhəd-buraxılış məntəqəsinin yaradılmasına tam hüquqi əsas var idi. Ermənilərin uydurduqları ağ yalanlara, böhtanlara əsaslanan ermənipərəst qüvvələr dövlətimizin haqq işinə müxtəlif siyasi don geyindirsələr də həmin ərazilərdə sühməramlıların yerləşməsi, hadisələrə onların nəzarət etməsi Azərbaycanın haqlı olduğunu və ədaləti bərpa etdiyini sübuta yetirdi.

Qarabağ və ətraf rayonlarda 23 saatlıq lokal xarakterli antiterror tədbirləri də rus sülhməramlılarının bölgəyə nəzarəti zamanı həyata keçirilmişdi. "Azərbaycan etnik təmizləmə siyasəti yürüdür" kimi iftiralar, böhtanlar uyduran Ermənistan bu yalanlarla ayaq tutsa da uzaq gedə bilmədi. Çünki okeanın o tayından havadarlarının görə bilmədiklərini, iki addımlıqda olan sülhməramlılar yaxından izləyirdilər. Bütün bunlar rus sülhməramlıların Qarabağda müəyyən bir dövr üçün mövcudluğunun vacib olduğunu və dövlətimizin uzaqgörən, məqsədyönlü siyasət yürütdüyünü bir daha təsdiqləyir.

Artıq Qarabağda kriminal xunta rejiminə son qoyulub, separatizmin kökü kəsilib. Tarixi torpaqlarımız müstəqil dövlətimizin nəzarəti altındadır, ərazi bütövlüyümüz və suverenliyimiz tam təmin olunub. Bütün bunlar isə ölkəmizdə artıq heç bir sülhməramlı qüvvənin yerləşməsinə ehtiyac olmadığını aydın göstərir.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**

## Sülhməramlıların Qarabağı tərk etməsi xainlərə sərt şillədir

**(əvvəli 1-ci səhifədə)**

Sülhməramlı kontingentin əsas məqsədi mülki əhaliyə münasibətdə qan tökülməsinin qarşısını almaq, təhlükəsizliyi təmin etmək və humanitar qanunlara riayət etmək idi. Lakin ötən il Qarabağda keçirilən antiterror tədbirləri nəticəsində ölkəmizin öz suverenliyini bərpa etməsindən sonra ərazidə qanunsuz erməni silahlı birləşmələri qalmadığı üçün sülhməramlı kontingentin artıq atəşkəsə nəzarət funksiyası da qüvvədən düşmüş hesab edildi.

Rusiyanın sülhməramlı qüvvələri 2025-ci ildə Azərbaycanı tərk etməli idi. Lakin prosesin vaxtından əvvəl yekunlaşması Azərbaycan cəmiyyəti tərəfindən müsbət qarşılanaraq dövlətimizin növbəti uğuru kimi qiymətləndirilir. Onu da qeyd edək ki, ötən ilin sonlarından başlayaraq Rusiya sülhməramlıları Qarabağın bir sıra bölgələrində yerləşən müvəqqəti müşahidə məntəqələrini bağlamışdılar.

Qarabağı tərk edən sülhməramlıların ilk heyəti və hərbi texnikası Kəlbəcər rayonundakı alban məbədi Xudavəng monastrının ərazisindən çıxıb. Artıq həmin ərazini Azərbaycan polisi mühafizə edir. Xocalıdakı əsas dislokasiya bazası da boşaldılır. Rusiya sülhməramlılarının ərazilərimizi tərk etməsi prosesi tam olaraq yekunlaşacaq. Bu, hər iki tərəfin razılaşdırılmış qərarı və qarşılıqlı siyasi uğurudur.



Azərbaycanın həyata keçirdiyi son antiterror tədbirlərindən sonra yaranmış reallıqlar bu gün öz nəticəsini verir. Rusiya Prezidenti Vladimir Putin həmin hadisələrdən sonra məsələ ilə bağlı bu fikirləri bildirmişdi: "Qarabağda rus sülhməramlıları yalnız atəşkəsin qorunmasına nəzarət edirdilər, onların başqa hüquqları yoxdur". Bu isə o demək idi ki, artıq bölgədə qanunsuz erməni silahlı birləşmələri olmadığı üçün atəşkəsə nəzarət funksiyasına da ehtiyac yoxdur. Ona görə də sülhməramlıların Qarabağdakı missiyasını bitmiş hesab edərək Azərbaycan ərazisini tərk etməsi gözlənilən idi. Bu il yanvar ayında Rusiyanın xarici işlər naziri Sergey Lavrov isə Nyu-Yorkda keçirilən mətbuat konfransında məsələ ilə bağlı verilən sualları cavablandırarkən demişdir: "Qarabağı hər kəs Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyıb. Bizim orada faktiki olaraq sülhməramlılarımız var. Amma bu məsələ artıq Ermənistan tərəfinə aid deyil. Bu, Rusiya ilə Azərbaycan arasında ikitərəfli münasibətlərə aid olan məsələdir. Hazırkı mərhələdə rus sülhməramlılarının mövcudluğu regionda sabitliyin möhkəmləndirməsində müsbət rol oynayır".

Vətən müharibəsi başa çatdıqdan sonra sülhməramlıların Qarabağa yerləşdirilməsinə istər xarici, istərsə də daxildəki qaragüruhçu qüvvələrin münasibəti heç də birmənalı olmamışdı. Ermənistan cəmiyyəti Rusiya əsgərlərinin bölgəyə gəlməsinə sevinib, bunu özlərinin bir növ gələcək qarantı kimi qiymətləndirmişdi. Onlara elə gəlirdi ki, sülhməramlılar heç vaxt Qarabağın dağlıq ərazilərini tərk etməyəcəklər. Hətta Ermənistanın eks-prezidenti Levon Ter-Petrosyan əminliklə söyləmişdi ki, Rusiya sülhməramlı qüvvələri Qarabağı 5 il sonra belə tərk etməyəcək. Əks təqdirdə, getsələr, o zaman Qarabağda bir nəfər erməni də qalmaz. Lakin zaman sübut etdi ki, bütün dövrlərdə olduğu kimi, müharibə bitdikdən sonra da qalib ölkə kimi Azərbaycan dövlətinin məqsəd və məramı yalnız bölgədə sülhə, barışığa nail olmaqdır. Bu mənada, bütün mümkün variantları Qarabağda tətbiq etməyə və ərazidə yaşayan erməni əsilli vətəndaşları birgəyaşayışa dəvət etməyə davam etdi.

Sapı özümüzdən olan baltalar isə prosesə tamamilə başqa don geyindirdilər. Sülhməramlıların bir daha ərazilərimizi tərk etməyəcəkləri barədə fikirlər səsləndirənlər də tapılırdı. Əldə olunan tarixi qələbələrimizə şübhə ilə yanaşanlar şahid oldular ki, Azərbaycan Prezidentinin siyasi iradəsi, diplomatik uzaqgörənliyi, qətiyyəti və xalq-dövlət birliyi nəticəsində böyük uğurlar qazanıldı. Sülhməramlıların ərazilərimizi vaxtından əvvəl tərk etməsi isə həmin tarixi uğurların, qələbələrin tərkib hissəsidir.

**Ramidə YAQUBQIZI,**
**"Respublika".**

## Yeni qlobal trend və əməkdaşlıq formatları

**Bu günlərdə Birləşmiş Ərəb Əmirliklərinin paytaxtında Əbu-Dabi Dayanıqlılıq Həftəsi çərçivəsində Yaşıl Hidrogen Sammiti keçirilib. "Yaşıl Hidrogen İqtisadiyyatlarını Sürətləndirmək üçün Milli Strategiyalar və Siyasətlər" üzrə Nazirlər Panelində respublikamızın energetika naziri Pərviz Şahbazov hidrogenin Azərbaycanın transformativ inkişaf və enerji təchizatçısı gündəliyinin əsas komponentlərindən olduğunu deyib. Əlverişli, təhlükəsiz və "təmiz enerji" sisteminə keçidin vacib hissəsi kimi hidrogen sənayesinin inkişafını təmin edən amillərdən bəhs edən nazir, həmçinin, Azərbaycanın COP29-a sədrlik missiyasının "yaşıl hidrogen"in inkişafına da maliyyə dəstəyini təmin etməklə "yaşıl enerji" keçidinə töhfə verəcəyini bildirib.**

Təbii-coğrafi mövqeyi, relyefi, iqlim şəraiti, günəş, torpaq, külək, su, biokütlə təbii enerji yaratma potensialı baxımından zəngin olması respublikamızda ekoloji cəhətdən təmiz alternativ və bərpaolunan enerji mənbələrindən düzgün və səmərəli şəkildə istifadə olunması üçün geniş imkanlar yaradır.

Ümummilli lider Heydər Əliyev hələ 1993-cü ildə alternativ energetikanın Azərbaycanda inkişaf perspektivlərini yüksək qiymətləndirərək deyirdi ki, respublikada günəş, külək və su energetikasının ehtiyatları böyükdür. Bu sahəni 30-40 il sonra inkişaf etdirmək mümkün olacaq, alternativ energetika ölkənin yanacaq-enerji balansında mühüm rol oynayacaq.

Texnologiyanın sürətli inkişafı, neft qiymətlərinin artması, habelə ölkələrin "yaşıl enerji"yə keçid strategiyaları bərpaolunan enerji mənbələrinə marağı artırıb. Dünyada bərpaolunan enerji mənbələrinə tələbatın artmasını nəzərə alan Azərbaycanda da bu istiqamətdə işlər aparılır. Belə ki, 2020-ci ilin dekabrında Energetika Nazirliyi və "Azərenerji" ASC ilə Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkəti arasında qoyuluş gücü 240 MVt olan külək elektrik stansiyasının reallaşdırılması məqsədilə "İnvestisiya müqaviləsi" imzalanıb. 2021-ci ilin aprel ayında isə Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti arasında 230 MVt gücündə günəş elektrik stansiyası layihəsi üzrə də müqavilə bağlanıb və hazırda Qaradağda günəş elektrik stansiyası fəaliyyət göstərir.

Dünyada "yaşıl iqtisadiyyat"a keçid də böyük aktuallıq kəsb edir. Məqsəd dünyada bərpaolunan mənbələr hesabına enerji istehsalını 2018-ci illə müqayisədə 50 faiz artırmaqdır. Öz siyasətini dünya trendlərinə uyğun quran Azərbaycan da son illərdə bu istiqamətdə önəmli addımlar atır. Ölkəmizin işğaldan azad olunmuş ərazilərin bərpası ilə bağlı irəli sürdüyü konsepsiyada 30 il ərzində xarabalığa çevrilmiş böyük bir ərazidə "yaşıl enerji" modelinə əsaslanan nəhəng quruculuq işləri nəzərdə tutulur. Qarabağ və Şərqi Zəngəzurda "ağıllı kənd", "ağıllı şəhər" layihələri icra edilir. Orta Dəhlizin (Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu) "yaşıl" və elektron dəhlizə çevrilməsi ilə gələcəkdə qonşu dövlətlərin geniş əlaqələri mümkün olacaq. "Yaşıl konsepsiya" əsas iqtisadi və texniki işlərdə günlük tələbatı alternativ enerji ilə qarşılamağı ehtiva edir.




Prezident İlham Əliyev bu ilin yanvarında yerli televiziya kanallarına müsahibəsində deyib: "Hazırda bizim elektrik stansiyalarımızda il ərzində təqribən 5 milyard kilometr təbii qaz elektrik enerjisinin istehsalına sərf edilir. İndi bərpaolunan enerji növləri bizə, o cümlədən imkan verəcək ki, həmin o 5 milyard kubmetr qazı yox, bəlkə 1-2 milyard kubmetr qazı elektrik enerjisinin istehsalına xərcləyək, qalan qazı ixrac edək. Onsuz da Avropada bizim qazımıza tələbat gündən-günə artır və biz bunu ancaq bərpaolunan enerji hesabına edə bilərik".

Son vaxtlar dünyanın aparıcı "yaşıl enerji" şirkətləri ilə kontraktlar, anlaşma memorandumları imzalanır və 10 min meqavat istehsal nəzərdə tutulur. Təbii ki, bütün bunlar iqlim dəyişmələri məsələlərinə də müsbət təsir edəcək, öz töhfəsini verəcək. Ancaq ölkəmizdə potensial böyük olduğundan istehsalın həcminin artırılması məsələsi də gündəmdədir. İstər quruda, istər dənizdə daha böyük günəş və külək stansiyalarının istifadəyə verilməsi planlaşdırılır ki, bu da öz növbəsində iş yerlərinin yaradılmasına, yeni texnologiyaların Azərbaycana gətirilməsinə, həm də bölgələrin inkişafına böyük təkan verəcək. Çünki ölkəmizdə Xəzər dənizindən kənarda qalan potensial stansiyalarımız bölgələrdə, o cümlədən Qarabağ bölgəsində yerləşir.

Zəngin karbohidrogen ehtiyatlarına, inkişaf etmiş yanacaq-energetika infrastrukturuna və özünü tam təmin edən enerji sisteminə malik olan ölkəmiz təkcə milli və regional səviyyədə deyil, həm də dünya enerji sistemində həlledici mövqe, transmilli enerji bazarlarında özünəməxsus yer tutur.

Azərbaycan bu gün regionda kənardan heç bir enerji asılılığı olmayan, bütün sahələr üzrə öz enerji tələbatını daxili imkanlar hesabına tam ödəməyə qadir olan iki ölkədən biridir. Həyata keçirilən enerji siyasətinin məqsədi ölkənin dünya bazarlarına çıxış imkanlarını daha da artırmaqdan və dünya ölkələri üçün alternativ enerji mənbəyi yaratmaqdan ibarətdir. Dünya enerji satışı bazarında çəkisini və rolunu xeyli gücləndirməsi Avropa dövlətlərinin Azərbaycanla əməkdaşlığa marağını daha da artırıb.

Ölkəmizdə bərpaolunan enerji növlərinin potensialı böyükdür və məhz bu səbəbdən dünyanın ən aparıcı enerji şirkətləri Azərbaycanla bu sahədə əməkdaşlığa üstünlük verirlər. Cənubi Qafqazın təhlükəsizlik qarantı və inkişaf mənbəyi kimi qəbul edilən ölkəmiz özünün zəngin enerji ehtiyatlarından səmərəli istifadə etməklə beynəlxalq miqyasda enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayan başlıca aktorlardan biridir.

Bu gün dünya nizamı dəyişməkdədir. Yeni qlobal trend və əməkdaşlıq formatlarının yaradılması artıq zərurətə çevrilib. Azərbaycan bu sahədə də dünya ölkələrinə nümunə olur.

**Zümrüd QURBANQIZI,**
**"Respublika".**

## ABŞ Dövlət Departamenti AZƏRTAC-ın sorğusunu cavablandırıb

**ABŞ Dövlət Departamentinin mətbuat xidməti aprelin 5-də Brüsseldə keçirilmiş ABŞ-Avropa İttifaqı-Ermənistan üçtərəfli görüşündə Ermənistana geniş hərbi dəstəyin göstərilməsi məsələlərinin əksini tapdığı sənədin mətbuatda yayılmış fotosu ilə bağlı AZƏRTAC-ın ABŞ bürosunun sorğusunu cavablandırıb.**



"Bu sənəd sırf dezinformasiyadır, təhlükəsizlik məsələləri gündəmdə olmayıb. Biz sizin diqqətinizi aprelin 5-də Brüsseldə keçirilmiş üçtərəfli görüşün yekununda Avropa İttifaqı və Ermənistan ilə birlikdə qəbul etdiyimiz press-relizə yönləndirmək istərdik. Avropa İttifaqı və Ermənistan ilə birlikdə keçirilmiş Brüssel görüşündə diqqət yalnız ticarət tərəfdaşlıqlarını şaxələndirməyə və humanitar ehtiyaclarını həll etməyə çalışan Ermənistanın iqtisadi dayanıqlılığına, o cümlədən Ermənistanda demokratiya və qanunun aliliyi kimi sahələrdə davam edən islahatları dəstəkləməyə yönəlib", - deyə Dövlət Departamentinin mətbuat xidmətinin sorğuya cavabında qeyd olunub.

Xatırladaq ki, Brüsseldə keçirilmiş ABŞ-Avropa İttifaqı-Ermənistan üçtərəfli görüşü ilə bağlı sənədlərdən birinin ötən gün fotosu yayılıb. Azərbaycan ictimaiyyətində geniş narahatlıq doğuran həmin fotodan da göründüyü kimi, üçtərəfli görüşlə bağlı daha əvvəldən verilən açıqlamaların əksinə, həmin sənəddə həm ABŞ-ın, həm də Avropa İttifaqının Ermənistana geniş hərbi dəstək göstərməsi əks olunub. ■

### RƏYLƏR, MÜLAHİZƏLƏR

## Bütün məsuliyyət Makron hakimiyyətinin üzərinə düşür



**Elman NƏSİROV,**
**Milli Məclisin deputatı.**

**Sirr deyil ki, Azərbaycan-Fransa münasibətləri bu gün heç zaman olmadığı qədər aşağı səviyyədədir. Bunun məsuliyyəti də Fransa tərəfinin üzərinə düşür. Çünki bu ölkənin həm ali icra hakimiyyəti, həm qanunverici hakimiyyət, həm də məhkəmə hakimiyyəti sistemində Azərbaycana qarşı hücumlar var.**

Makron səviyyəsində Ermənistan həm İkinci Qarabağ müharibəsinə qədərki, həm müharibə dövründə, həm də ondan sonrakı mərhələdə açıq və birmənalı şəkildə müdafiə olunur. Bu, daha diplomatik ibarələrlə gizlədilmir, açıq mətnlə anti-Azərbaycan siyasəti həyata keçirilir. Aşkar formada düşmən ölkəni silahlandırır, Ermənistanda revanşizmi ruhlandırır və üçüncü Qarabağ müharibəsinə hazırlayırlar. İndiyə qədər Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin imzalanmamasında əsas günahkar tək Paşinyan deyil, eyni zamanda Makrondur. Makronun Paşinyanın qulağına pıçıltıları, ona etdiyi təkliflər, tövsiyələr, məsləhətlər nəticə etibarilə baş nazirin sülh müqaviləsi imzalamaqdan yayınmasını şərtləndirən əsas amilə çevrilib. İndi də Makron Azərbaycandakı fövqəladə və səlahiyyətli səfirini məsləhətləşmələr üçün geri çağırır. Biz bilirik ki, bu geri çağırmanın mahiyyəti nədir. Bu, Azərbaycana diplomatik təzyiq elementidir və Makronun özü həmin səfiri qəbul edir. Hesab edirəm ki, bu proses belə davam edərsə, Azərbaycan dövləti də analoji addımlar ata və Fransadakı səfirimiz geri çağırıla bilər. Bütün bu qarşıdurma mühitinə görə məsuliyyət ilk növbədə Fransa dövləti, onun ali siyasi hərbi rəhbərliyinin üzərinə düşəcəkdir. ■

## Ölkəmizi daha böyük uğurlar gözləyir



**Tural İSMAYILOV,**
**politoloq.**

**Azərbaycan ərazilərində müvəqqəti yerləşdirilən Rusiya sülhməramlılarının missiyası başa çatır. Həm 2020-ci il 44 günlük Vətən müharibəsində qazandığımız qələbə, həm də 2023-cü ildə Xankəndidə keçirdiyimiz antiterror tədbirləri ilə separatçılığın kökünün tamamilə kəsilməsi, ardınca isə rus sülhməramlılarının vaxtından əvvəl Azərbaycan ərazilərini tərk etməsi cənab İlham Əliyevin siyasi zəkasının növbəti təzahürüdür. Cənab Prezident İlham Əliyev bildirib: "Mən nəyi nə zaman etmək lazım olduğunu bilirəm". Bu gün regional və qlobal sferada rəsmi Bakının yürütdüyü uğurlu siyasət, hadisələrin gedişatı sübut edir ki, gələcək perspektivdə Azərbaycanı daha böyük uğurlar gözləyir.**

Məlumdur ki, Azərbaycan və Rusiya arasında kifayət qədər yüksək siyasi-diplomatik münasibətlər formalaşıb. Məhz rəsmi Bakı və Moskva əlaqələrinin belə pozitiv məcrası fonunda Azərbaycan və Rusiya ali rəhbərliyinin qərarı əsasında sülhməramlılar ərazilərimizi tərk ediblər. Lakin təəssüflər olsun ki, onların bir gün torpaqlarımızdan gedəcəkləri məlum ikən xaricdəki və daxildəki bəzi radikal qüvvələr daim bu mövzunu gündəmə gətirirdilər.

Hesab edirəm ki, sözügedən hadisədən sonra təkcə xarici və daxildəki bəzi radikal, anti-Azərbaycan qüvvələr deyil, həm də onların havadarları əsaslı nəticə çıxarmalı oldu. Ölkəmizin istənilən halda bütün addımları Azərbaycanın önəmli bir dövlət statusunda olduğunu sübut edir. ■

# Azərbaycan memarlığına milli kolorit gətirən sənətkar



**"Milli memarlıq ilk növbədə milli formadır, ənənədir". Bu gün bu fikirlərin müəllifi, Azərbaycanın görkəmli memarı Mikayıl Useynovun doğum günüdür.**

1905-ci ildə Bakıda dünyaya göz açan memar paytaxtın bir çox məşhur binasında öz imzasını qoymuşdur: "Bu sənəti mən hələ uşaqkən sərbəst olaraq seçmişəm. Belə ki, hələ uşaq yaşlarımdan kibrit dənələrindən, plastilindən, ağac qırıntılarından müxtəlif "konstruksiyalı binalar" tikərdim. İndiki kimi yadımdadır, 10 yaşım tamam olanda qohumlarım mənə Leonardo Da Vinçi haqda kitab və İtaliya şəhərlərinin mənzərələrini əks etdirən filmoskop bağışladılar. Mən uzun illər nə o kitabdan, nə də ki, filmoskopdan ayrıla bilmədim. Bu iki hədiyyənin özü də mənim memarlıq sənətinə olan sevgimi daha da qüvvətləndirdi". Ömrünün sonunacan peşəsinə sadiq qalan memarın bu sözlərində onun sənətinə xüsusi sevgisini görürük.

Bu arzu ilə böyüyən Mikayıl 1922-1929-cu illərdə Azərbaycan Politexnik İnstitutunda mühəndis-memar ixtisasına yiyələnir və 1930-1959-cu illərdə "Azərdövlətmemarlayihə" İnstitutunda memar, sonra isə memarlıq emalatxanasının rəhbəri olur. Onun rəhbərliyi ilə emalatxananın yaradıcı heyəti, gənc memarlar Bakıda saysız-hesabsız memarlıq abidələrini reallaşdırmışlar.

Alim 1950-ci ildə Respublika Elmlər Akademiyasının həqiqi üzvü seçilir. 1951-ci ildən ömrünün sonuna kimi Akademiyanın Rəyasət Heyəti yanında tarix və mədəniyyət abidələrinin mühafizəsi üzrə elmi-metodik şuranın sədri olur. Bir vətənpərvər olaraq həmin çətin dövrdə Azərbaycanın şəhərsalma prinsiplərinə sadiq qalır və milli memarlıq siması olan binaların nümunəsini yaradır.

Bu gün görkəmli memarın müəllifi olduğu Nazirlər Kabineti, Azərbaycan Dövlət Konservatoriyası, Azərbaycan Texniki Universiteti, Respublika Milli Kitabxanası, Elmlər Akademiyası, Nizami adına Ədəbiyyat Muzeyi və s. binaların, bir sıra metropoliten stansiyalarının, şəhərin ən iri mehmanxana-restoran komplekslərinin layihələri doğma Bakımızı indi də bəzəməkdədir. Azərbaycan memarlığına milli kolorit gətirməsi Mikayıl Useynovun yüksək peşəkarlığından xəbər verir.



Memarın geniş yaradıcılıq əməyinin bəhrəsi, həmçinin Bakının küçələrini, meydanlarını bəzəyir. Nizami Gəncəvinin, Həzi Aslanovun, Səməd Vurğunun, Mehdi Hüseynzadənin, Üzeyir Hacıbəyovun, Məhəmməd Füzulinin abidələri buna misaldır. Memar bu layihələri də böyük bacarıqla yaradıb. Eyni zamanda 1962-ci ildə paytaxtımıza daha da gözəllik gətirən Azadlıq meydanı kompleksinin layihəsi də onun güclü yaradıcılıq qabiliyyətinin göstəricisidir.

Alim "Azərbaycan memarlıq tarixi" (1963) adlı fundamental elmi əsəri ilə milli memarlıq elmi məktəbinin bünövrəsini qoymuşdur. Belə ki, onun rəhbərliyi ilə onlarla dissertasiya müdafiə olunmuş və kadr potensialı formalaşmışdır. Görkəmli memar istər verdiyi layihələrlə, istər müəlliflik etdiyi əsərlərlə Azərbaycanın memarlıq tarixinə əvəzsiz töhfələr bəxş etmişdir.

Dövlət və Respublika mükafatı laureatı, SSRİ xalq memarı, Azərbaycan SSR Elmlər Akademiyasının akademiki, memarlıq doktoru, professor Mikayıl Useynov dövrünün ictimai və mədəni xadimi kimi daim fəallığı və məhsuldar yaradıcılığı ilə seçilmişdir. Ömrünün təqribən 50 ilini memarlığa həsr edən sənətkar, eyni zamanda iki "Lenin" ordeni, iki "Qırmızı əmək bayrağı" ordeni və SSRİ-nin başqa orden və medalları ilə təltif olunmuşdur.

M.Useynov 250-dən çox layihə, 100-dən çox elmi işin müəllifidir. 1985-ci ildə İngiltərə kraliçası II Yelizavetanın himayəsi altında Böyük Britaniya və İrlandiya Kral Asiya İcmasının fəxri üzvü seçilmişdir.

1992-ci ildə alimin təşəbbüsü ilə Beynəlxalq Şərq Memarlıq Akademiyası yaradılmış və onun ilk prezidenti Mikayıl Useynov olmuşdur. Azərbaycanı dünyaya tanıdan klassikimiz həmin ilin iyun ayında isə Beynəlxalq Memarlar Akademiyasının Moskva şöbəsinin fəxri üzvü seçilmişdir. 1992-ci il oktyabrın 7-də gözlərini dünyaya əbədi yuman əvəzsiz memar M.Useynov Fəxri Xiyabanda dəfn edilib.

**Röya RÜSTƏMLİ,**
**"Respublika".**

# Tariximizin qanlı səhifələrindən: Başlıbel faciəsi



**Xalqımıza qarşı erməni millətçiləri tərəfindən məqsədyönlü şəkildə həyata keçirilən etnik təmizləmə, soyqırımı və təcavüzkarlıq siyasəti son iki yüz illik tariximizin faciələrlə dolu çox ağrılı səhifələrini təşkil edir. İki əsr bundan əvvəl erməni millətçi-şovinist siyasətin əsas məqsədi azərbaycanlıları öz tarixi yurd yerlərindən qovmaq, əzəli torpaqlarımızda uydurma "böyük Ermənistan" dövləti yaratmaq olub. Ermənilərin xalqımıza qarşı törətdikləri faciələrdən biri 1993-cü ilin aprelində Kəlbəcər rayonunun Başlıbel kəndində olub. Həmin faciədən 31 il ötür.**

1993-cü il aprelin əvvəllərində Kəlbəcər Ermənistan tərəfindən işğal ediləndən sonra Başlıbel kəndinin 62 sakini evlərini vaxtında tərk edə bilməmiş, düşməndən qorunmaq üçün dağlara çəkilmiş və kahalarda cəmi 18 gün gizlənə bilmişdilər. Aprelin 18-də erməni silahlı dəstələri sakinlərin sığındığı yerləri aşkarladıqdan sonra 18 nəfəri qətlə yetirmiş, 14 nəfəri isə girov götürmüşlər.

Sağ qalan 30 nəfər yalnız gecələr hərəkət edir, gündüzlər isə gizlənirdilər. Onlar 113 gündən sonra gizli dağ yolları ilə Ermənistan ordusunun mühasirəsindən çıxa bildilər.

Qeyd edək ki, Kəlbəcər rayonunun ən qədim və böyük kəndlərindən olan Başlıbelin tarixi, mədəni və dini obyektləri ermənilər tərəfindən dağıdılaraq məhv edildi.

Başlıbel faciəsinin araşdırılması həmişə diqqətdə saxlanılıb. 2017-ci ildə Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə vəsaiti ilə "Başlıbel faciəsi: erməni vəhşilikləri şahidlərin dili ilə" kitabı nəşr edilib. Azərbaycan və ingilis dillərində buraxılan nəşrdə Başlıbel kəndində törədilmiş qırğın haqqında canlı şahidlərin, mühasirədə qalanları xilas etmək üçün böyük fədakarlıq göstərmiş şəxslərin xatirələri yer alıb. Başlıbel faciəsi haqqında məlumatlar ABŞ Dövlət Departamentinin Demokratiya, İnsan Hüquqları və Əmək Bürosunun 2021-ci il dünya ölkələrində insan hüquqlarının vəziyyətinə dair illik hesabatına da daxil edilib.

Erməni şovinistləri Azərbaycan və türk xalqına qarşı hər zaman düşmən mövqedə olublar. Son vaxtlar məlumatların dəqiqləşdirilməsi istiqamətində araşdırmalar genişləndirilir, təkzibolunmaz arxiv sənədləri, soyqırımları və ermənilərin digər cinayətlərini təsdiqləyən çoxsaylı dəlil-sübutlar aşkarlanır. Belə ki, 2021-ci ilin fevralında Şuşa rayonunun Daşaltı kəndində 7 nəfərin basdırıldığı kütləvi məzarlıq tapılıb. 2021-ci ilin aprelində Başlıbeldə də belə məzarlıq, 2022-ci ilin martında isə Xocalı rayonunun Fərrux kəndində meyit qalıqları aşkar edilib. Həmin ilin sentyabrında Xocavənd rayonunun Edilli kəndində 18 nəfərə aid insan qalıqları aşkar edilərək kütləvi məzarlıqdan çıxarılıb. Bu il fevralın 21-də isə Xocalı şəhərinin mərkəzində (keçmiş xalça fabrikinin yaxınlığında) bərpa-quruculuq işləri çərçivəsində aparılan qazıntılar zamanı kütləvi şəkildə basdırılmış insan qalıqları aşkarlanıb.

Bütün bu faktlar, həmçinin Birinci Qarabağ müharibəsi zamanı itkin düşmüş 4 minə yaxın azərbaycanlının taleyinin məlum olmaması ermənilərin insanlıq əleyhinə ağır cinayətlərindən xəbər verir. Bu cinayətlərə görə erməni vandalları və terrorçuları mütləq beynəlxalq hüquq və ədalət məhkəməsi qarşısında cavab verməli olacaqlar.

Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsində xalqımız böyük Zəfər qazandı. Ermənilərin tarix boyu xalqımıza qarşı törətdikləri bütün vəhşi hərəkətlərin cavabı məhz 44 gün davam edən Vətən müharibəsində və 2023-cü ilin sentyabrında həyata keçirilən lokal xarakterli antiterror tədbirlərində verildi. Soyqırımı qurbanlarının, şəhidlərimizin qısasını Azərbaycan Ordusu döyüş meydanında alaraq düşməni kapitulyasiya aktına imza atmağa məcbur etdi. Kəlbəcər rayonu bir güllə atılmadan, şəhid vermədən düşmən tapdağından azad edildi. Baş Planı təsdiq olunmuş Kəlbəcərdə hazırda geniş tikinti-quruculuq işləri həyata keçirilir.

**"Respublika".**

# İrəvanətrafı ərazilərdə erməni vəhşilikləri



**Qərbi Azərbaycan əlverişli mövqeyi, zəngin yerüstü və yeraltı təbii sərvətləri ilə daim ermənilərin və onların havadarlarının diqqətini cəlb etmişdir. Tarixin müxtəlif dövrlərində qədim Oğuz ellərinə basqınlar edən haylara qarşı xalqımız ölüm-dirim mübarizəsi aparmış, qəhrəmanlıqlar göstərmişdir.**

Qərbi azərbaycanlılara qarşı çar Rusiyası və onun Qafqazdakı əlaltısı Ermənistan tərəfindən aparılmış işğalçı siyasət nəticəsində dəhşətli talanlar edilmiş, xalqımız kütləvi şəkildə qırılmış, torpaqlarımız zəbt edilmişdir.

Zaman-zaman "Ermənistan" adlı bir qara kölgə Qərbi Azərbaycanın başı üzərində dolaşmaqda idi. 1920-ci ilin yazında Tiflisdə parlament nümayəndələri Ermənistanın paytaxtını müəyyənləşdirmək məqsədilə müzakirəyə başladılar. Azərbaycanın tarixi ərazisi olan qədim İrəvanın Ermənistana paytaxt verilməsi parlamentin üzvü Həsən bəy Ağayev tərəfindən kəskin etirazla qarşılandı. 28 parlament üzvündən 16-sı İrəvanın Ermənistan paytaxtı olmasına səs verdikdə Həsən bəy Ağayev etiraz əlaməti olaraq parlament üzvlüyündən çıxdı. Bir neçə gündən sonra daşnaklar onu Tiflisdə qətlə yetirdilər. 1918-ci il mayın 29-da Azərbaycan Milli Şurasının qərarı ilə qədim Azərbaycan şəhəri İrəvan ətrafındakı 9 min kvadratkilometr ərazini əhatə edən torpaqlarla birlikdə erməni vandallarına verildi. Bura Yeni Bəyazid qəzası (Basarkeçər adlanan cənub-şərq qismi istisna olmaqla), İrəvan qəzası (Qəmərli-Gərnibasar, Uluxanlı-Zəngibasar və Vedibasar istisna olmaqla), Eçmiədzin qəzası (Sərdarabad istisna olmaqla) və Aleksandropol qəzası daxil idi (qəza mərkəzi Aleksandropol istisna olmaqla). Beləliklə, yeni yaradılmış Ermənistan Respublikası Göyçə gölü ilə Osmanlı dövlətinin yeni sərhədləri arasındakı dar dağlıq ərazini təşkil edirdi.

Bu məsələ ilə bağlı Batumi konfransındakı bəzi məqamlara nəzər salaq. Sənədlər sübut edir ki, erməni tərəfi Batumi danışıqlarına və imzalanan müqavilələrə əsasən İrəvan və ətrafındakı soydaşlarımıza məxsus torpaqların onlara verilməsi müqabilində üzərinə bir sıra öhdəliklər götürdü. Lakin məqsədlərinə nail olduqdan sonra bütün öhdəlikləri birtərəfli qaydada pozaraq, işğalçılıq siyasətini davam etdirdi. Beləliklə, İrəvan və ətrafındakı Qərbi Azərbaycan ərazilərinin ermənilərə verilməsi barədə həm Batumi müqavilələrinin müvafiq maddələri, həm də Azərbaycan Xalq Cümhuriyyəti Milli Şurasının 29 may 1918-ci il tarixli qərarı öz hüquqi qüvvəsini itirdi.

1918-ci ilin mayından 1920-ci ilin noyabrına qədər hakimiyyətdə olan daşnak hökuməti azərbaycanlıların qanına susamışdı. Bu müddətdə onlar 440-dan artıq azərbaycanlı kəndini yandırıb məhv etmiş, Qərbi Azərbaycandakı yüz minlərlə soydaşımızı ata-baba yurdlarından qovmuşlar. 1920-ci ilin əvvəlinə kimi 220 mindən çox azərbaycanlı daşnak siyasətinin qurbanı olmuşdu. 1919-cu ilin noyabr-dekabr aylarında Türkiyə və İrana 250 minə qədər azərbaycanlı getmişdi.

Daşnak quldurlar şaxtalı bir qış gecəsində öz mənfur siyasətlərini həyata keçirmək məqsədilə Vedinin Reyhanlı kəndinə qəflətən hücum etdilər. Onlar bu kənddə hansı faciələri törətmədilər? Neçə-neçə dinc, günahsız insanlar evlərə doldurulub yandırıldı. Amansızlıqla qətlə yetirilib su quyularına dolduruldu. 10-15 südəmər uşaq qəddarlıqla sandıqlara doldurulub ağzı qıfıllandı. Günahsız körpələrin ahnaləsi ərşə ucaldı.

Ermənilər belə vəhşilikləri İrəvanətrafı digər rayonlarda da törətdilər. Neçə-neçə insanlar yaralı-yaralı maşınlarla Göyçə gölünə töküldü.

İrəvan nəinki bütün Qafqazda, hətta şərq ölkələrində belə iri ticarət, elm və mədəniyyət mərkəzi, tipik müsəlman şəhəri olmuşdur. Burada bir-birindən yaraşıqlı 8 məscid tikilmişdi. Əzəmətli Göy məscid və Günlüklü məscid son dövrlərə qədər qalırdı. Şəhərin bir tərəfi mənbəyini Göyçə gölündən alan Zəngi çayının sıldırım təpəsi üstündə, o biri tərəfi isə çuxurda yerləşirdi. Ağrı dağı vadisi bura qədər uzanırdı. İrəvan sıx meşə və bağlarla əhatə olunmuşdu.

Qədim yurd yerimizin başı üzərindən fəlakət qasırğası zaman-zaman ötüb keçmişdir. İran, Osmanlı imperiyası arasında qanlı müharibələr, vilayətin dönə-dönə əldən-ələ keçməsi talana, soyğunçuluğa, dağıntılara məruz qalması İrəvan şəhərinə ağır zərbələr vurmuşdu. XX əsrin birinci yarısında azərbaycanlıların qədim yaşayış məskəni olan İrəvan şəhərində erməni separatçıları analoqu olmayan faciələr törətmiş, dəfələrlə İrəvan qalası mühasirəyə alınmış, azərbaycanlılar amansızlıqla qətlə yetirilmiş, çar Rusiyası tərəfindən xaç qardaşları olan ermənilərə köməklik göstərilmişdir.

1920-ci ilin əvvəlində Qazax qəzasının cənub hissəsində Ermənistanın Dilican qəzası yaradıldı. Zəngəzur qəzasının bir hissəsi Ermənistan ərazisində qaldı. Qeyd etmək lazımdır ki, XI qızıl ordu Ermənistanı işğal etdikdən 3 gün sonra, yəni 1920-ci il dekabrın 1-də Rusiyanın təzyiqi ilə Azərbaycan Xalq Komissarları Şurası Dilicanı, Qaraqoyunlu dərəsini və geniş əraziyə malik olan Göyçəni ermənilərə vermişdir.

Azərbaycan Prezidenti İlham Əliyevin belə bir fikrini xatırlamaq yerinə düşərdi: "Tarixi Azərbaycan torpaqları olan Qarabağ və Zəngəzur XX əsrin əvvəllərindən başlayaraq erməni əhalisinin yerləşdirilməsi, demoqrafik vəziyyətin zorla dəyişdirilməsi, 1905, 1918-ci illərdə azərbaycanlı əhalisini qorxutmaq və qovmaq məqsədi güdən kütləvi qırğınlar, 1920-ci ildə Zəngəzurun Ermənistana verilməsi, 1948-1953-cü illərdə yüz minlərlə azərbaycanlının indiki Ermənistan ərazisindəki əzəli yurdlarından köçürülməsi xalqımıza qarşı erməni təcavüzünün qanlı səhifələridir".

Terror, şantaj, separatçılıq yolunu seçmiş ermənilər və onların faşist ideyalı "Daşnaksütyun" partiyası Qərbi Azərbaycan torpaqları və azərbaycanlı əhalinin dəhşətli faciəsi hesabına öz mənfur məqsədlərinə nail olmuş, soydaşlarımız XX əsrin müxtəlif illərində üç dəfə deportasiyaya məruz qalmışlar.

**Qədir ASLAN,**
**"Respublika".**

# DÜNYA BUGÜN
## XƏBƏRLƏR

### İSRAİL İRANIN HÜCUMUNA CAVAB OLARAQ İRİMİQYASLI ZƏRBƏLƏR ENDİRMƏK İSTƏYİB



İsrail rəhbərliyi İranın yəhudi dövlətinə raket və dron hücumları həyata keçirdiyi gecə bu ölkəyə qarşı irimiqyaslı zərbələr endirməyi planlaşdırırdı. Bu barədə "The New York Times" qəzeti öz mənbələrinə istinadən məlumat yayıb.

Nəşrin xəbərinə görə, İsrail rəhbərliyi irimiqyaslı zərbələr əmr etməyə "çox yaxın olub". Məhz bu səbəbdən ABŞ rəsmiləri İsraili müdafiəsinə qələbə kimi baxmağa çağırıb ki, yəhudi dövləti bundan sonra daha da gərginləşdirici addımlar atmasın.

Eyni zamanda, nəşr qeyd edib ki, İsrailin baş nazir Benyamin Netanyahu ABŞ prezidenti Cozef Baydenlə söhbətindən sonra cavab atəşi qərarını ertələyib və bundan sonra "ertələmələr" davam edib.

Xatırladaq ki, aprelin 14-nə keçən gecə İran 300-dən çox dron, qanadlı və ballistik raketlərlə İsrailə hücum edib. İsrail ordusu buraxılmış raket və dronların 99 faizini məhv etdiyini açıqlayıb. İran isə hücumunu uğurlu adlandırıb. İsrail İranın hücumuna "əhəmiyyətli və güclü cavab" verəcəyini bildirib.

### GÜRCÜSTAN PARLAMENTİ ƏLAVƏ TƏHLÜKƏSİZLİK TƏDBİRLƏRİNİ GÜCLƏNDİRİB



Gürcüstan parlamenti əlavə təhlükəsizlik tədbirləri haqqında bəyanat dərc edib. "Report" agentliyinin yerli bürosu xəbər verir ki, parlament sarayına giriş yalnız ziyarətçilərlə məhdudlaşacaq.

Bununla yanaşı, bəyanata əsasən, parlament sədrinin 4 sentyabr 2023-cü il tarixli "Gürcüstan parlamentinin sarayında təhlükəsizlik qaydalarının təsdiq edilməsi haqqında" sərəncamına uyğun olaraq, aprelin 18-dən sarı təhlükəsizlik səviyyəsi tətbiq edilir. Parlamentin planlaşdırılan tədbirlərinə, o cümlədən komitə iclaslarına yalnız müvafiq struktur bölmələri tərəfindən dəvət olunmuş şəxslər buraxılacaq.

"Məhdudiyyət televiziya şirkətlərinin akkreditə olunmuş jurnalistlərinə şamil edilmir. Bu tədbirin məqsədi Gürcüstan parlamentinin sarayında təhlükəsiz və iş mühitinin təmin edilməsidir", - deyə məlumatda bildirilir.

Xatırladaq ki, aprelin 15-dən Gürcüstan parlamentində "Xarici təsirin şəffaflığı haqqında" qanun layihəsi müzakirə olunur. Aprelin 15, 16 və 17-də qanunverici orqanda analoji təhlükəsizlik rejimi qüvvədə olub.

### ABŞ İSRAİLƏ DƏSTƏK ÜÇÜN 26 MİLYARD DOLLAR VƏSAİT AYIRA BİLƏR



Yaxın Şərqdə münaqişənin kəskinləşməsi fonunda ABŞ büdcəsindən İsrailə dəstək məqsədilə 26,38 milyard dolların ayrılması nəzərdə tutulur. "Trend" agentliyinin xəbərinə görə, bu, ABŞ Konqresinin Nümayəndələr Palatasının hazırladığı qanun layihəsində öz əksini tapıb.

Sözügedən məbləğin 4,4 milyardının İsrailə tədarük edilən texnika və müdafiə xidmətlərinin, daha 4 milyardının isə "Dəmir Qübbə" və "David Sling" hava hücumundan müdafiə sistemlərinin ehtiyatlarının artırılmasına sərf ediləcəyi gözlənilir.

Xəbər verilir ki, bununla yanaşı silahların alınmasına 3,5 milyard dollar, ABŞ-ın regiondakı cari hərbi əməliyyatlarına isə 2,4 milyard dollar xərclənəcəyi gözlənilir.

Həmçinin açıqlamaya görə, qeyd olunan məbləğdən 1,2 milyard dollar "Iron Beam" hava hücumundan müdafiə sisteminə xərclənəcək.

### RADİOAKTİV TULLANTILARI ZƏRƏRSİZLƏŞDİRƏ BİLƏN BAKTERİYALAR AŞKARLANIB



Almaniyalı alimlər radioaktiv materialları daha sabit və ətraf mühitə az zərər verə biləcək hala gətirəcək bəzi bakteriya növləri kəşf ediblər. Bu barədə tədqiqatın nəticələri "Science of The Total Environment" jurnalında dərc olunub.

Bildirilir ki, mütəxəssislərin diqqətini gilli süxurların havasız mühitində yaşayan "Desulfosporosinus" cinsinə aid mikroblar cəlb edib. Belə süxurlardan yüksək radioaktiv tullantıların saxlanıldığı anbarlarda qoruyucu maneələr yaratmaq üçün istifadə olunur.

Alimlər bu bakteriyaların uran duzlarının məhlulları ilə qarşılıqlı təsirini araşdırıblar. Təcrübələr göstərib ki, "Desulfosporosinus" suda asanlıqla həll olunan altıvalentli uranı demək olar ki, həll olunmayan dördvalentli urana çevirir.

Nəticədə bakteriyalar bir həftə ərzində həll olunan maddənin təxminən 40 faizini daha təhlükəsiz formaya çevirib. Mütəxəssislərin fikrincə, bu, mikroorqanizmlərin qoruyucu reaksiyasına görə baş verir.

Elmi işin müəllifləri qeyd ediblər ki, onların kəşfi radioaktiv tullantıların saxlanması obyektlərinin etibarlılığını artırmağa kömək edəcək, həmçinin radiasiya ilə çirklənmiş suyun təmizlənməsi üçün yeni üsullar yaradacaq.

### RUSİYANIN ALMANİYADAKI SƏFİRİ XİN-ə ÇAĞIRILIB



Rusiyanın Almaniyadakı səfiri Sergey Neçayev Xarici İşlər Nazirliyinə çağırılıb. "Trend" agentliyinin verdiyi xəbərə görə, bu barədə "Bild" qəzeti məlumat yayıb.

Nəşrin açıqlamasına əsasən, səfirin Almaniya XİN-ə çağrılması ölkədə Rusiyaya casusluq etməkdə və təxribat hazırlamaqda şübhəli bilinən iki nəfərin saxlanılması ilə əlaqədardır.

Eyni zamanda, bildirilir ki, Rusiyanın Almaniyadakı səfirliyi hələ ki, məlumatla bağlı açıqlama verməyib.

Qeyd edək ki, aprelin 18-də Almaniyada Rusiyaya casusluq etməkdə və təxribat hazırlamaqda şübhəli bilinən iki nəfər həbs olunub. "Der Spiegel" jurnalının məlumatına görə, Bavariya federal əyalətinin Bayroyt şəhərində keçirilən əməliyyat nəticəsində 39 yaşlı Diter S. və 37 yaşlı Aleksandr J. saxlanılıb.

Verilən xəbərə görə, Almaniya Baş Prokurorluğu Rusiyaya casusluq etməkdə və təxribat hazırlamaqda şübhəli bilinən iki nəfərin həbs olunması xəbərini təsdiqləyib.

### CƏNUBİ KOREYA 20 MİLYARD DOLLAR DƏYƏRİNDƏ SİLAH İXRAC ETMƏK NİYYƏTİNDƏDİR



Cənubi Koreya 2024-cü ildə silah ixracı üçün hədəfini 20 milyard dollar səviyyəsində müəyyənləşdirib. "Report" agentliyinin xəbərinə görə, bu barədə Koreya Respublikasının Ticarət, Sənaye və Energetika Nazirliyi məlumat yayıb.

"Dünyanın aparıcı ölkələrinin müdafiə xərclərini artırması ilə əlaqədar olaraq, silah bazarının 2027-ci ilə qədər 900 trilyon vona (təxminən 654 milyard dollar) çatacağı proqnozlaşdırılır. Buna görə hökumət bu il 20 milyard dollarlıq ixrac həcminə çatmaq üçün hərtərəfli yardım göstərməyi planlaşdırır", - deyə məlumatda bildirilib.

Xəbər verilir ki, son iki il ərzində Cənubi Koreyanın müdafiə sənayesi şirkətləri 30 milyard dollardan çox gəlir əldə ediblər. Bu il Koreya Respublikası "FA-50" təyyarələrinin satışını da gözləyir. Rəsmi Seul həmçinin Cənubi Koreya helikopterlərinin ilk partiyasının ixracına ümid edir.

Eyni zamanda, nazirlik vurğulayıb ki, silah ixracı ölkənin xarici ticarətində getdikcə daha mühüm rol oynamağa başlayır.

### HİNDİSTAN ƏHALİSİNİN SAYINA GÖRƏ DÜNYADA BİRİNCİ YERDƏ QƏRARLAŞIB



Hindistan əhalisinin sayına görə dünyada lider ölkə olub. Bu barədə BMT-nin Əhali Fondunun (UNFPA) hesabatında bildirilir. Hazırda bu ölkədə 1 milyard 442 milyon insan yaşayır. İkinci yerdə isə 1 milyard 425 milyon əhali sayı ilə Çin qərarlaşıb.

Məlumata əsasən, fond Hindistan əhalisinin artımını ölkədə sosial-iqtisadi vəziyyətin yaxşılaşması və ana ölümü səviyyəsinin azalması ilə əlaqələndirir.

BMT-nin hesablamalarına görə, hazırda Hindistan əhalisinin 26 faizi 10-24 yaş arasındadır. Ötən il ölkədə orta ömür həddi kişilər üçün 71, qadınlar üçün isə 74 yaş hesab edilib.

2011-ci ildə aparılan son siyahıyaalmaya görə, Hindistanın əhalisi 1 milyard 210 milyon idi. Çinin əhalisi isə 2022-ci ildə 1 milyard 426 milyon nəfərə çatıb və azalmağa başlayıb.

Mütəxəssislər əsrin sonuna qədər Çin əhalisinin 1 milyarddan aşağı düşəcəyini proqnozlaşdırıblar. Digər tərəfdən Hindistan əhalisinin növbəti bir neçə onillikdə artmağa davam edəcəyi gözlənilir.

**Hazırladı:**
**Vamiq ABBASOV,**
**"Respublika".**

# Hava necə olacaq?







**Müdafiə nazirinin təsdiq etdiyi 2024-cü ilin hazırlıq planına əsasən, Azərbaycan Hərbi Hava Qüvvələrinin aviasiya vasitələri təlim-məşq uçuşlarını icra ediblər.**

**Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, əvvəlcə şəxsi heyətə təhlükəsizlik qaydaları çatdırılıb. Hərbi pilotların sağlamlıq vəziyyəti yoxlanıldıqdan sonra praktiki uçuşlar yerinə yetirilib.**

**Ssenariyə uyğun olaraq Su-25ML və Su-25 tipli təyyarələrdən müəyyən edilmiş marşrutlar üzrə gündüz vaxtı havaya qalxma, yerə enmə, həmçinin müxtəlif hündürlüklərdə çətin pilotaj və döyüş manevrləri üzrə tapşırıqlar icra edilib.**

**Hərbi pilotların döyüş hazırlığının təkmilləşdirilməsi məqsədilə keçirilən təlim-məşq uçuşları zamanı qarşıya qoyulan tapşırıqlar yüksək peşəkarlıqla yerinə yetirilib.** ■




# 138 ölkə ilə ticarət əməliyyatları



**Dövlət Statistika Komitəsinin məlumatına görə, 2024-cü ilin yanvar-fevral aylarında Azərbaycan Respublikasının hüquqi və fiziki şəxsləri dünyanın 138 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirmiş, 84 ölkəyə məhsul ixrac olunmuş, 134 ölkədən idxal olunmuşdur.**

Gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla 2024-cü ilin yanvar-fevral aylarında ölkənin xarici ticarət dövriyyəsi 6428,2 milyon ABŞ dolları təşkil etmişdir. Ticarət dövriyyəsinin 3981,6 milyon dollarını və ya 61,9 faizini ölkədən ixrac olunmuş məhsulların, 2446,6 milyon dollarını (38,1 faizini) isə idxal məhsullarının dəyəri təşkil etmiş, nəticədə 1535,0 milyon dollar məbləğində müsbət saldo yaranmışdır.

Dövlət Gömrük Komitəsindən daxil olmuş məlumatlara əsasən, ölkənin xarici ticarət dövriyyəsinin 25,3 faizi İtaliya, 13,6 faizi Türkiyə, 8,2 faizi Rusiya, 7,4 faizi İsrail, 6,7 faizi Çin, 5,5 faizi Hindistan, 3,0 faizi Tailand, 2,4 faizi Almaniya, 1,8 faizi Gürcüstan, 12,7 faizi isə digər ölkələr ilə aparılmış ticarət əməliyyatlarının payına düşmüşdür.

"Respublika".

# Sudan qanunsuz istifadə hallarına qarşı nəzarət tədbirləri



**Azərbaycan Prezidenti İlham Əliyevin təsdiqlədiyi Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair Tədbirlər Planına uyğun olaraq içməli sudan qanunsuz istifadənin aşkarlanması, su itkilərinin minimuma endirilməsi və israfçılığın qarşısının alınması məqsədilə nəzarət tədbirləri davam etdirilir. Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi əməkdaşlarının Suraxanı rayonunda keçirdiyi nəzarət tədbirləri zamanı bir sıra obyektlərdə içməli sudan qeyri-qanuni istifadə halları aşkarlanıb.**

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin məlumatında bildirilir ki, Yeni Suraxanı qəsəbəsi 14 iyul küçəsində yeni tikilmiş apartman tipli binanın su təchizatı sisteminə baxış keçirilərkən məlum olub ki, binanın su təchizatı sisteminə qoşulmaq üçün texniki şərti və layihəsi var. Lakin obyektin sahibi texniki şərtin icrası öhdəliyini və tələblərini yerinə yetirməyib. Əksinə, binanın əsas su xəttini layihədə nəzərdə tutulan nöqtəyə deyil, başqa istiqamətdən özbaşına, şəbəkəyə müdaxilə etməklə birləşdirib.



Hövsan qəsəbəsi Rasim Şahsuvarov küçəsində bir sahibkara məxsus market, aptek, zoomağaza və ət satışı obyektlərində də suyun talanması aşkarlanıb. Obyekt sahibi texniki şərt almadan və müqavilə bağlamadan şəbəkəyə qanunsuz olaraq qoşulub. Hövsan-Türkan yolu üzərində yerləşən marketdə də oxşar vəziyyət aşkarlanıb. Marketin su təchizatı qanunsuz çəkilmiş xətt vasitəsilə aparılıb. Bülbülə qəsəbəsində yeni inşa olunan mebel sexinin sahibi texniki şərt almadan və müqavilə bağlamadan obyektin su xəttini özbaşına şəbəkəyə qoşub.

Nəzarət tədbirləri zamanı aşkar edilən bütün qeyri-qanuni xətt və birləşmələr kəsilərək ləğv edilib.

Qeyd edək ki, cari ilin birinci rübündə içməli sudan qeyri-qanuni istifadə ilə bağlı Suraxanı rayonunda 76, ümumilikdə isə 1250 fakt aşkarlanaraq qarşısı alınıb. Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi vətəndaşların və sahibkarların diqqətinə çatdırır ki, içməli sudan qeyri-qanuni və sayğacdankənar istifadə yolverilməzdir. Bu əməlləri törədən fiziki və hüquqi şəxslərə qarşı sərt nəzarət tədbirlərinin görülməsi üçün hüquq-mühafizə orqanlarına müraciət olunacaq.

"Respublika".

# Azərbaycanda demoqrafik vəziyyət

**Dövlət Statistika Komitəsinin məlumatına görə, ilin əvvəlindən ölkə əhalisinin sayı 6769 nəfər və ya 0,1 faiz artaraq 2024-cü il martın 1-nə kimi 10187539 nəfərə çatmışdır. Əhalinin bir kvadratkilometrə düşən sayı 118 nəfər olmuşdur.**

Əhalinin ümumi sayının 54,5 faizini şəhər, 45,5 faizini kənd sakinləri, 49,8 faizini kişilər, 50,2 faizini isə qadınlar təşkil edir. Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən cari ilin yanvar-fevral ayları ərzində ölkədə 17081 doğulan körpə qeydə alınmış və əhalinin hər 1000 nəfərinə bu göstərici 11,7 təşkil etmişdir. Doğulan körpələr arasında oğlan uşaqlarının xüsusi çəkisi 52,5 faiz, qız uşaqlarının isə 47,5 faiz olmuşdur. Körpələrdən 594-ü əkiz, 36-sı üçəm doğulmuşdur.

Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən 6739 nikah və 3456 boşanma halları qeydə alınmışdır.

"Respublika".




# Azercell "GSMA M360 EURASIA" tədbirinə ev sahibliyi edəcək

## "M360 Eurasia 2024" Bakıda qabaqcıl texnoloji şirkətlərin liderlərini yenidən bir araya gətirəcək




**"Azercell Telekom" MMC Bakıda ikinci dəfə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin dəstəyi ilə keçirilən "GSMA M360 Eurasia 2024" konfransının baş sponsoru qismində çıxış edir. Ötən il olduğu kimi, bu il də konfrans telekommunikasiya və rəqəmsal texnologiyalar sahəsində çalışan aparıcı ekspertləri, eləcə də region üzrə tənzimləyici qurumların nümayəndələrini öz ətrafında toplayacaq. Tədbir çərçivəsində sənayenin rəqəmsallaşma prosesinə birbaşa təsiri, onun innovasiya və tərəqqi üçün yaratdığı yeni perspektivlər haqqında danışılacaq.**

"Yüksək sürətlə irəliləyən elmi-texnoloji inkişaf, bir çox sahələrdə proseslərin avtomatlaşdırılması davamlı inkişaf üçün sərhədsiz imkanlar vəd edir. Bu gün Azercell-in lider mobil operator mövqeyində qərarlaşması bizi ölkənin rəqəmsal ekosisteminin formalaşması prosesinin aparıcı qüvvələrindən birinə çevirir. Bu bizim üçün böyük məsuliyyət deməkdir", - deyə Azercell-in prezidenti Zərinə Zeynalova bildirib. "Biz "GSMA M360" kimi nüfuzlu beynəlxalq tədbirə Bakıda ev sahibliyi etməkdən qürur duyuruq. İnanırıq ki, konfrans davamlı gələcəyin qurulmasına öz töhfəsini verəcək, bu mövzuda aparılan müzakirələr və yeni tərəfdaşlıqlar üçün uğurlu platforma rolunu oynayacaq".

Konfransın açılış günündə rəqəmsal dövrün transformasiya gücü, eləcə də MDB ölkələri və qonşu regionlarda davam edən bu keçidin daha da sürətləndirilməsi yolları müzakirə ediləcək. Əsas mövzular arasında generativ süni intellekt (Generative AI) və Rəqəmsal DNT (Digital DNA) yer alır. Tədbirin ikinci günündə ətraf mühit, sosial və idarəetmə (ESG) prinsipləri gündəmə gətiriləcək. COP29 ərəfəsində rəqəmsallaşma prosesinin və iqlim fəaliyyətinin bir-birinə təsiri, dayanıqlı inkişaf məqsədlərinə çatmaq üçün tətbiq olunan texnoloji yeniliklər barədə danışılacaq. Daha sonra sənaye liderləri yeni nəsil şəbəkələr və kibertəhlükəsizlik kimi mövzular ətrafında müzakirələr aparacaqlar.

Qeyd edək ki, ötən il tədbirə 29 fərqli ölkədən iştirakçılar qatılmışdı ki, onlardan 30%-i müxtəlif şirkət və qurumların rəhbərləri, 45%-i isə qeyri-telekommunikasiya sahəsində çalışan iştirakçılar təşkil edirdi. Bu il də tədbirin eyni miqyasda auditoriya toplaması gözlənilir.

15-16 may tarixlərində "JW Mariott Absheron Baku" mehmanxanasında baş tutacaq bu tədbirdə iştirak etmək üçün "GSMA M360 Eurasia" səhifəsində onlayn qeydiyyatdan keçmək olar. ■

AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ
RESPUBLİKA

REKLAM VƏ ELAN XİDMƏTİ
441-20-23

Baş redaktor
Hümbət MUSAYEV

Redaksiya ilə əlaqə nömrələri

| | |
|---|---|
| Qəbul otağı | 493-59-08 |
| Katiblik | 538-43-41 |
| Siyasət, ictimai problemlər və analitik təhlil redaksiyası | 538-55-20 |
| Rəqəmsal inkişaf, iqtisadiyyat və islahatlar redaksiyası | 434-56-90 |
| Humanitar siyasət redaksiyası | 538-25-70 |
| Xəbərlər, ictimai rəy və sosial problemlər redaksiyası | 538-01-31 |
| Texniki şöbə | 538-61-02 |
| Ümumi şöbə | 510-82-52 |
| Reklam və elan xidməti | 441-20-23 |

Redaksiyanın ünvanı
AZ1073, Bakı, Mətbuat prospekti,
529-cu məhəllə, VII mərtəbə.
www.respublika-news.az
respublikaqezeti@mail.ru, resp.paper@gmail.com

Qeydiyyat №7 İndeks 0240 Tiraj: 4213

*"Respublika" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində ofset üsulu ilə çap olunmuşdur.*

Qəzetin saytına keçid üçün QR kodu telefonunuzla oxudun

Sifariş 831, Satış qiyməti 60 qəpik

İDMAN

## İki gimnastımız finalda





Azərbaycanın idman gimnastları Nikita Simonov və Nazənin Teymurova Qətərin Doha şəhərində keçirilən Dünya Kubokunda finala yüksəliblər. İdmançılarımız halqalarda və dayaqlı tullanma proqramında həlledici mərhələdə iştirak hüququ qazanıblar.

Ötən gün start götürən Dünya Kubokuna aprelin 20-də yekun vurulacaq.

## Atıcılıq üzrə Dünya Kubokunun rəsmi posteri

Azərbaycan Atıcılıq Federasiyası (AAF) Bakıda keçiriləcək stend və güllə atıcılığı üzrə Dünya Kubokunun rəsmi posterini təqdim edib. Yarış Bakı Atıcılıq Mərkəzində təşkil olunacaq. Turnirdə 80-dən çox ölkədən 400-dən artıq idmançının və 300-dən çox texniki heyətin iştirakı gözlənilir. Qeyd edək ki, yarış mayın 1-dən 12-dək keçiriləcək.




## Ölkəmizi Avropa çempionatında 18 boksçu təmsil edəcək

Boks üzrə Azərbaycan millisinin Serbiyanın paytaxtı Belqradda keçiriləcək Avropa çempionatı üçün heyəti açıqlanıb. Turnirdə 25 çəki dərəcəsində (13 kişi, 12 qadın) 35 ölkədən 400 boksçunun iştirakı gözlənilir. Millimizin heyətində 13-ü kişi, 5-i qadın olmaqla, 18 idmançı yer alıb. Kişilər arasında Həsən Məlikov (48 kiloqram), Məsud Yusifzadə (51 kiloqram), Amin Məmmədzadə (54 kiloqram), Şamil Əsgərov (57 kiloqram), Tayfur Əliyev (60 kiloqram), Malik Həsənov (63,5 kiloqram), Nəbi İsgəndərov (67 kiloqram), Sərxan Əliyev (71 kiloqram), Kamran Şahsuvarlı (75 kiloqram), Murad Allahverdiyev (80 kiloqram), Eldar Quliyev (86 kiloqram), Alfonso Dominqes (92 kiloqram) və Məhəmməd Abdullayev (+92 kiloqram), qadınlar arasında Anaxanım İsmayılova (48 kiloqram), Marjona Savriyeva (51 kiloqram), Zeynəb Rəhimova (54 kiloqram), Məhsəti Həmzəyeva (57 kiloqram) və Şəhla Allahverdiyeva (66 kiloqram) mübarizə aparacaqlar.



## Basketbol üzrə Azərbaycan Kubokunda finalçılar müəyyənləşib



Basketbol üzrə Azərbaycan Kubokunda finalçılar müəyyən edilib. İlk oyun "NTD-İndiqo" və "Xəzri" komandaları arasında olub. Görüş "Xəzri" komandasının qələbəsi ilə başa çatıb. Bununla da komanda finala vəsiqə qazanıb. Növbəti görüşdə "Neftçi" ilə "Sərhədçi" komandası qarşılaşıb. Rəqibinə 91:73 hesabı ilə qalib gələn "Neftçi" həlledici mərhələyə adlayıb. Qeyd edək ki, "Xəzri" və "Neftçi" arasında baş tutacaq final matçı aprelin 20-də keçiriləcək.

Nərgiz İSMAYILOVA,
"Respublika".

DAİM ZİRVƏLƏRDƏ

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

*İnformasiya Texnologiyaları (İT) sahəsinin müstəqil auditi xidmətlərinin satınalınması məqsədilə*

MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2024-cü il aprelin 25-i saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan:** *Bakı, Mikayıl Useynov küç. 2*
**Əlaqə telefonu:** *(012) 404-37-00, daxili: 1132.*

"Ağsu Avtonəqliyyat" ASC-nin ümumi yığıncağı keçiriləcəkdir

**Gündəlik:**
**1.** Səhmdar Cəmiyyətinin 2023-cü ildəki fəaliyyəti haqqında
**2.** Cari məsələlər
Yığıncaq Ağsu şəhəri, M.Ə.Rəsulzadə küç. 6 ünvanında 24 iyun 2024-cü il saat 10:00-da keçiriləcəkdir.

"Ağsu Sutikinti" ASC-nin 24.06.2024-cü il tarixində saat 11:00-da ümumi yığıncağı keçiriləcək.

**Gündəlik: Cari məsələlər.**
**Ünvan:** *Ağsu rayonu, Melioratorlar qəsəbəsi.*

İsrafilov Saleh Gülağa oğluna məxsus nəzarət kassa aparatı (AZ.5117534-01-08 FO) itdiyi üçün etibarsız sayılır.

ALLAH RƏHMƏT ELƏSİN

**Azərbaycan Texniki Universitetinin rektorluğu və Həmkarlar İttifaqı Komitəsi universitetin Radioelektron və aerokosmik sistemlər kafedrasının professoru Vaqif Məhərrəmova, əziz bacısı LİLİPAR xanımın vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.**